# Cənubi Qafqaza sülh gəlir


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 166 (30860) 10 avqust 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Prezident İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində ABŞ-a işgüzar səfəri ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində Amerika Birləşmiş Ştatlarına (ABŞ) işgüzar səfəri ilə bağlı paylaşım edib.**

Paylaşımda "Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri (07-09.08.2025)" sözləri yer alıb.

# Dünya tarixi bir günə şahidlik etdi

## Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

*Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb*





**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-a işgüzar səfəri çərçivəsində Ağ Evə gəldi.**

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını qarşıladı.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.

*(ardı 2-ci səhifədə)*

## Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir

**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Telefon danışığı zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlığa və strateji müttəfiqliyə əsaslanan əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz əlaqənin yaradılmasına xidmət edəcək nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında normallaşma prosesində Prezident Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin oynadığı rolu yüksək qiymətləndirib və buna görə təşəkkürünü bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan regionda sülh gündəliyinin irəli aparılmasında nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə təbriklərini çatdırıb və qeyd edib ki, Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir.

Söhbət zamanı Azərbaycan təbii qazının Türkiyə ərazisindən Suriyaya ixracının başlanması müsbət hadisə kimi qiymətləndirilərək, bunun Suriyanın enerji təhlükəsizliyinə və əhalinin sosial rifahının gücləndirilməsinə töhfə verəcəyi bildirilib.

Telefon danışığı əsnasında Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Millətimin İlham Əliyev imzası

səhifə ⇨ 7

## BMT Baş katibi Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannaməni alqışlayıb

**BMT Baş katib Antonio Quterreş Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampla birgə imzaladığı Birgə Bəyannaməni Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında mühüm mərhələ kimi alqışlayır.**



Bu məlumat BMT Baş katibinin sözçüsü Stefan Dujarrikin bəyanatında açıqlanır.

Bildirilir ki, Baş katib Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın davamlı dialoq və etimadın yaradılmasına sadiqliyini alqışlayır və Prezident Trampın tərəqqiyə kömək etmək səylərini tanıyır. "Baş katib Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün bütün səylərə Birləşmiş Millətlər Təşkilatının güclü dəstəyini bir daha təsdiqləyir",- deyə bəyanatda vurğulanır.

## Tramp sosial media səhifəsində Azərbaycan və Ermənistanla bağlı 20-dən çox paylaşım edib

**ABŞ Prezidenti Donald Tramp "Truth" sosial mediasındakı səhifəsində son sutka ərzində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtona səfəri, görüşlər, imzalanmış sənədlər və çıxışlarla bağlı 20-yə yaxın paylaşım edib.**




Bu müddətdə o, Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışını 2 dəfə səhifəsinə yerləşdirib.

Donald Trampın "Truth" sosial mediasındakı səhifəsinin 10 milyondan çox izləyicisi var. ABŞ lideri vacib açıqlama və bəyanatlarını bu hesab vasitəsi ilə elan edir.

# Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanması mərasimi





(əvvəli 1-ci səhifədə)

Daha sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham Əliyev** dedi: 33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu.

**Prezident Donald Tramp** dedi: Xalqınız böyük xalqdır. Bizim şəxsi tanışlığımızdan əvvəl belə Siz mənim haqqımda gözəl sözlər söylədiniz. Hətta bizim seçkilərdə qalib gəlməyimizdən əvvəl.

**Prezident İlham Əliyev:** Bəli, Sizin qalib olmağınızdan əvvəl. Bu, mənim səmimi sözlərim idi. Siz ilk prezidentlik dövrünüzdə gördüyünüz işlərə görə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin rəğbətinə layiqsiniz. Son bir neçə ay ərzində Siz Asiya, Afrika və nəhayət Cənubi Qafqaza sülh gətirdiniz. İnanılmazdır.

**Prezident Donald Tramp:** Pakistan və Hindistan arasında qarşıdurma. Bu, ciddi məsələ idi, çünki hər ikisi nüvə silahına malik ölkədir.

**Prezident İlham Əliyev:** Kamboca və Tailand.

**Prezident Donald Tramp:** Bəli, böyük işlər gördük. Siz də həmin işləri görərdiniz. Sizin münaqişə də ciddi məsələdir, nə qədər sürdü döyüşlər – 33, 35 il?

**Prezident İlham Əliyev:** Bəli, münaqişə 1988-ci ildə başlayıb. Lakin hərbi qarşıdurmanın fəal fazası 1991-1992-ci illərdə başlayıb.

**Prezident Donald Tramp:** Lakin münaqişə həll edilmirdi.

**Prezident İlham Əliyev:** Xeyr. Müharibə 1994-cü ildə dayandı və sonsuz, mahiyyətdən məhrum olan danışıqlar dövrü başladı.

**Prezident Donald Tramp:** Bu, çox ciddi bir məsələdir.

**Prezident İlham Əliyev:** Əlbəttə, Siz möcüzəyə imza atdınız.

**Prezident Donald Tramp:** Ancaq mətbuat bunu heç vaxt eşitmək istəmir.

**Prezident İlham Əliyev:** Azərbaycan mətbuatı bunu işıqlandıracaq.

**Prezident Donald Tramp:** Siz böyük lidersiniz.

**Prezident İlham Əliyev:** Böyük lider mənim yanımda əyləşib.

**Prezident Donald Tramp:** Mənim Sizin üçün hədiyyəm var. İcazə verin, onu təqdim edim. Zənnimcə, bəyənəcəksiniz.

**Prezident İlham Əliyev:** Mənim 9 nəvəm var, icazə versəniz, hamısını götürərdim.

**Prezident Donald Tramp:** Sizin 9 nəvəniz var? Mənə əlavə sikkə verin. Siz gözəl danışıq aparırsınız. Bu sikkələr hamının xoşuna gəlir. Dünyanın ən gözəl sikkəsidir. Bəlkə də dünyanın ən bahalı sikkəsidir. Heyət üzvləri yaxınlaşın və şəklinizi də çəksinlər.

Sonda Ağ Evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim edən **Prezident Donald Tramp** dedi: Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm.

# Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə





Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar.





**Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair**

## BİRGƏ BƏYANNAMƏ

Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək aşağıdakıları bəyan edirik:

**1** Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;

**2.** Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

**3** Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

**4** Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

**5.** Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

**6** Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

**7** Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik.

Bu Bəyannamə 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində imzalanmışdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Nikol PAŞİNYAN,**
**Ermənistan Respublikasının Baş naziri**

**Şahidlik etdi:**
**Donald TRAMP,**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

# Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülhə dair saziş layihəsini paraflayıblar və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalayıblar

**Avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.**



# Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistan Baş nazirinin Ağ Evdə mətbuata bəyanatları

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər. Əvvəlcə ABŞ Prezidenti mətbuata bəyanatla çıxış etdi.**



## Prezident Donald Trampın bəyanatı

– Bu ölkələr uzun illər ərzində - 35 il müharibə şəraitində olublar. İndi isə onlar dostdur və bundan sonra uzun müddət dost qalacaqlar. Bu gün Ağ Evdə Ermənistan ilə Azərbaycan arasında sülh sammitində hər kəsi qəbul etməkdən böyük şərəf duyuram. Mən böyük insanların bir araya toplanmasından böyük zövq alıram və burada məhz bu baş verir. İki uzaqgörən lider - Prezident Əliyev və Baş nazir Paşinyanı Vaşinqtona səfər edərək bu mühüm bəyannamənin imzalanması münasibətilə təbrik edirəm. Bu, çox vacib bir sənəddir. Mənə bildirildi ki,





keçmişdə tərəflər dəfələrlə buna nail olmağı mümkün hesab ediblər, lakin bu baş verməyib. Mən, həmçinin Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiven Uitkoff və Dövlət Departamentində çalışan heyətlərə təşəkkürümü bildirmək istərdim. Eyni zamanda, sizin ölkələrdən də burada dövlət rəsmiləri var və onlar da bu işlərə böyük diplomatik dəstək veriblər.

Ermənistan və Azərbaycan 35 ildən artıq müharibə şəraitində olub. Bu münaqişə uzun illər ərzində insanlara əziyyət və məhrumiyyət gətirmişdir. Bir çox ölkələr, həmçinin Avropa İttifaqı, Rusiya bunun üzərində gərgin çalışıb, lakin buna nail ola bilməyib. Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib.

Bu razılaşma ilə biz sülhü təmin etməyə müvəffəq olmuşuq. Biz bir az əvvəl oval ofisdə bu sazişə aid olan çoxsaylı sənədləri və vacib elementləri imzaladıq. Ermənistan ilə Azərbaycan kommersiya və səyahət əlaqələrinin qurulmasına, diplomatik münasibətlərin yaradılmasına sadiqliyini vurğulayır, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət bəslədiyini bəyan edir. Bu iki şəxs o qədər də tez-tez görüşmürdü, ancaq bundan sonra aralarında gözəl münasibətlər olacaq. Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni, bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq.

Ermənistan ABŞ-la birlikdə bu dəhlizin inkişafı ilə bağlı xüsusi tərəfdaşlıq yaradır. Bu tərəfdaşlıq 99 illik olacaq və bizə vəd verilib ki, bu müddət uzadıla bilər. Bəli, siz bizə söz verdiniz. Orada Amerika infrastruktur şirkətlərinin böyük layihələrlə məşğul olacağını gözləyirik. Onlar bu iki ölkədə çalışmağı arzulayır və bu işlərə böyük maliyyə vəsaiti ayıracaqlar. Bu, üç ölkəyə iqtisadi səmərə gətirəcək və vacib bir region üçün çox əhəmiyyətli xəbərdir.

Bununla yanaşı, ABŞ hər iki ölkə ilə enerji, ticarət, texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsinə dair ikitərəfli sazişlər imzalayır. O cümlədən süni intellekt sahəsində. Enerji sahəsinə gəldikdə, burada ölkəmizi energetika naziri Kris Rayt təmsil edir və o, bu işi hər kəsdən gözəl bilir. Onun mənə verdiyi məlumata görə, bu sahə münbitdir və görüləcək işlər var. Mən onun fəaliyyətini yüksək qiymətləndirirəm və ölkədə benzinin qiymətinin ciddi ucuzlaşmasında onun böyük əməyi var. Biz, həmçinin bəlkə tarixdə heç vaxt olmadığı qədər neft və qaz quyuları qazırıq və bu, hələ başlanğıcdır.

Biz, həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu, həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir. Bir Prezident olaraq mənim ən böyük istəyim dünyada sülhün və sabitliyin bərqərar edilməsidir.

İndi isə sözü Azərbaycan Prezidentinə vermək istərdim.

*

Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Təşəkkür edirəm cənab Prezident. ABŞ Prezidenti tərəfindən bu tarixi tədbirə dəvət edilməyimdən şərəf duyuram. Birincisi, bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərimizdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsətdir, həm də məsuliyyət. Bu strateji tərəfdaşlıq formatı bir çox vacib sahələri əhatə edir - qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizə. Bu günədək bu sahələrdə əməkdaşlığımız olub və ümid edirəm ki, gələcəkdə də fəal əməkdaşlığımız olacaqdır. Bu, Azərbaycan üçün inkişaf yolunda iqtisadiyyatın şaxələndirilməsi, bu gün olduğu kimi, işsizliyin aşağı səviyyədə saxlanılması və gələcəyə böyük nikbinliklə baxmaq üçün yeni imkanlar yaradır.

Həmçinin cənab Prezidentə məhdudiyyətlərin aradan qaldırılmasına görə təşəkkürümü bildirirəm. Azərbaycana qarşı həmin məhdudiyyətlər 1992-ci ildə - müstəqilliyinin bərpasından bir il sonra tətbiq edilib. Bizə qarşı tətbiq edilmiş bu məhdudiyyət 33 ildən sonra bu gün aradan qaldırıldı. Həqiqətən bu gün Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq. Onun həm Azərbaycana olan münasibəti və təkcə bizim regionumuz deyil, - bu gün mən bunu fikir mübadiləmizdə qeyd etdim, - cəmi bir neçə ay ərzində Prezident Tramp Afrikada, Asiyada və nəhayət, Cənubi Qafqazda 30 il ərzində əldə oluna bilinməyəni təmin etdi. Biz insanların qurban verilməsi, böyük itkilər ilə nəticələnən iki çox ağır müharibə aparmalı olduq. Prezident Tramp və onun komandası, bizim yaxşı dostumuz Stiven Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də sonsuz danışıqlar prosesində idilər.

Bu, həqiqətən tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq.

Cənab Prezident, ölkələrimiz, regionumuz və bütün dünya üçün gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

**Prezident Donald Tramp:** Hər iki şəxs böyük liderdir. Siz neçə ildir ölkənizdə rəhbər vəzifədə çalışırsınız?

**Prezident İlham Əliyev:** 22 ildir.

**Prezident Donald Tramp:** 22 il. Bu o deməkdir ki, Siz güclü və ağıllı insansınız, regionunuz dünyanın gözəl bölgəsidir. Bu işdə iştirak etmək mənim üçün böyük şərəfdir.

Söz verilir Ermənistanın Baş naziri Nikol Paşinyana.

*

Ermənistanın Baş naziri bəyanatla çıxış etdi.

## Baş nazir Nikol Paşinyanın bəyanatı

– Təşəkkür edirəm, cənab Prezident.

Xanımlar və cənablar. Bu gün biz Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyət əldə etdik. Biz keçmiş tariximizdən fərqli olacaq yeni hekayənin təməlini qoyuruq. Bu sıçrayış Prezident Trampın şəxsi iştirakı və regionumuzda sülhün bərqərar edilməsinə güclü sadiqliyi olmadan mümkün deyildi. Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq. Bu baxımdan, icazə verin, suverenlik, ərazi bütövlüyü və yurisdiksiya prinsipləri əsasında regionda nəqliyyat yollarının açılmasına dair razılaşmanı qeyd edim. Mən çox məmnunam ki, bütöv bir bölgənin imkanlarını təmin edəcək bağlantılar layihəsi sayılan "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun qurulması üçün Ermənistan ABŞ-la birgə işləyəcək.

TRIPP yolu uzunmüddətli fayda gətirəcək strateji iqtisadi imkanlar açacaq. Onun sayəsində infrastruktura sərmayələr, daha geniş regional bağlantılar təşviq olunacaq, münaqişənin həllində carçı kimi tanınan ABŞ rəhbərliyi ilə əməkdaşlıq güclənəcək. Mən Ermənistan ilə Azərbaycan arasında vəziyyəti tam dəyişən nəticələrin əldə olunmasına görə Prezident Trampa və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün əldə etdiyimiz razılaşma çox əhəmiyyətlidir. Bu, ölkələrimiz və regionumuz üçün uğurdur, dünya üçün uğurdur. Çünki daha dinc region daha təhlükəsiz dünya deməkdir. Bu, qısaca desək, gücə əsaslanan sülh deməkdir. Cənab Prezident, bu gün əldə olunan böyük nailiyyət qlobal rəhbərliyinizin daha bir təzahürüdür və sizin dünya miqyasında sülh yaradan insan və dövlət xadimi kimi irsinizdir.

Sülhün bərqərar olunması uzaqgörənlik, siyasi cəsarət və qətiyyət tələb edir. Lakin ən vacibi odur ki, o, bu işlərə inamı tələb edir. "İncil"də yazıldığı kimi, "sülh yaradanlar xoşbəxtdirlər, çünki onlar Allahın oğulları adlandırılacaqlar. Tanrı onların yolunu açıq etsin".

Təşəkkür edirəm və hamımızı təbrik edirəm. Prezident Əliyev, Sizi və hamımızı, Azərbaycan, Ermənistan və ABŞ-dan olan həmkarları, regionumuzun bütün xalqlarını, ölkələrimizin bütün insanlarını təbrik edirəm.

Hamıya təbriklərimi çatdırıram, çünki dediyim kimi, bununla birmənalı olaraq daha yaxşı dünya qurulacaq. Sağ olun.

**Prezident Donald Tramp:** Əla. Sağ olun.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistan Baş nazirinin Ağ Evdə mətbuata bəyanatları

**(əvvəli 3-cü səhifədə)**





Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Sammitinin nəticələri ilə bağlı birgə bəyannaməni imzaladılar.

*

**Prezident Donald Tramp:** Bu, həqiqətən böyük nailiyyətdir və sizləri təbrik edirəm. Siz iki inanılmaz lidersiniz. Adınız tarixə düşəcək. Mən münaqişənin nə qədər uzun çəkdiyini oxudum. Siz bundan keçmisiniz. Bəzi insanlar gözləntilərinizi doğrultmayıb və sair. Bəlkə siz kimisə qane etməmisiniz. Bilmirəm bunlar sizdə necə olub. Lakin adətən işlər bu cür gedir. Lakin həmin məsələ çox, çox xüsusidir. Beləliklə, mən, ümumiyyətlə, həmin məsələnin ortasında qalmaq istəməzdim, lakin bəzi suallar veriləcək. Həmin məsələyə aid suallar olacaq. Bu gün ərzində biz digər məsələləri də elan edəcəyik.

*

Sonra suallar cavablandırıldı.

**Sual:** Qarabağ ermənilərinə qayıtmaq imkanı veriləcəkmi? Həmçinin Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi barədə aparılan söhbətlərə münasibətiniz necədir?

**Baş nazir Nikol Paşinyan:** Düşünürəm ki, Prezident Tramp Nobel Sülh Mükafatına layiqdir. Biz onun namizədliyini dəstəkləyəcəyik və təşviq edəcəyik. Təbii haldır. Bir sözlə, düşünürəm ki, bu gün keçirilən tədbir onun bariz nümunəsidir. Ümidvarıq ki, siz bizi dəvət edəcəksiniz.

**Prezident Donald Tramp:** Bəli. Siz ön cərgədə oturacaqsınız.

**Baş nazir Nikol Paşinyan:** Bəli. Bəli.

**Prezident Donald Tramp:** Çox sağ olun.

**Baş nazir Nikol Paşinyan:** Biz lehinəyik.

**Prezident Donald Tramp:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Olar bir təklif verim?

**Donald Tramp:** Bəli.

**Prezident İlham Əliyev:** Bəlkə Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi məqsədilə Nobel Komitəsinə birgə müraciətin göndərilməsində Baş nazir Paşinyanla razılaşaq. Çünki üç onillikdən artıq müharibədə olmuş ölkələrin rəhbərlərinin burada tarixi imza atmaları həqiqətən böyük əhəmiyyət kəsb edir. Bu, Prezident Trampın rəhbərlik səylərinin nəzərəçarpan nəticəsidir. Heç kəs buna nail ola bilməyib. 1990-cı illərin əvvəlindən burada çox prezidentlər olub, Minsk qrupu olub. Yeri gəlmişkən, 1992-ci ildə fəaliyyətə başlamış həmin qrupa bu gün biz erməni həmkarımla son qoyuruq. ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqlar üç onillikdən çox çəkdi və heç bir nəticə vermədi.



Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik.

Ümid edirəm ki, mən, həmçinin Prezidentin mükafatlandırma mərasiminə qoşulacağam. Ümidvarıq ki, o, bizi mərasimə dəvət edəcək.

**Prezident Donald Tramp:** Sağ olun. Siz təbii ki, olacaqsınız. Çox sağ olun.

**Baş nazir Nikol Paşinyan:** İndi imzalamaq üçün layihəmiz varmı?

**Prezident Donald Tramp:** Baxarıq, necə olacaq.

**Prezident İlham Əliyev:** Biz imzalamaq istərdik.

**Prezident Donald Tramp:** Çox sağ olun. Çox yaxşı. Bilirsiniz, burada və orada hər zaman kiçik problemlər olur, elə deyilmi? Böyük problemlər həll olunub. Ən böyüklər artıq geridə qaldı.

**Prezident İlham Əliyev:** İlk növbədə, qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur.

Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək.

**Prezident Donald Tramp:** Həqiqətən, çox əla bəyanatdır.

**Baş nazir Nikol Paşinyan:** Üzr istəyirəm, tam razıyam. Heç bir əlavəm də yoxdur.

**Prezident Donald Tramp:** İki əla bəyanatdır, bununla belə, əla hazırlanmış bəyanatdır. Oldu. Gəlin, bir neçə sual da dinləyək. Buyurun.



**Sual:** Cənab Prezident, Cənubi Qafqazda bir çoxları Amerikanın Azərbaycanla ikitərəfli münasibətlərdə olan maneələrin və dünyanın həmin hissəsindəki sülhün olmamasının günahını Sizin sələfiniz Co Bayden və onun Dövlət katibi Antoni Blinkenin üzərinə qoyur. Ölkənizin və administrasiyanızın Azərbaycan və Ermənistanla tərəfdaşlığının gücləndirilməsi Sizin üçün nə dərəcədə əhəmiyyətlidir? Bu, Sizin irsiniz üçün nə kimi əhəmiyyət kəsb edir?

**Prezident Donald Tramp:** Bəli, mənim üçün əhəmiyyətlidir. Bilirsiniz, keçmişdə nəyin baş verdiyini bilirəm, çünki çox oxumuşam və onlar arasında uzun müddət çox ağır münasibətlər olub. Yəni, müharibə olub. Bir çox dövrlərdə müharibə olub. Amma işlər düzəlir və ona görə onlar əla insanlardır.

Mən Ermənistandan çox insanı tanıyıram. Hər iki ölkədən çox insanı tanıyıram və onlar inanılmaz şəxslərdir. Baş vermiş hadisələr gərək olmayaydı. Arzu edirdim ki, burada daha tez olum. Əgər seçkilər başqa cür keçsəydi, bu gün hər şey əla olardı. Mən ziddiyyətli danışmaq istəmirəm, lakin qeyd edirəm ki, seçkilər saxtalaşdırılmışdı.

Məsələni dörd il tez həll edə bilərdim. Lakin həqiqət göz qarşısındadır. Əgər seçkilər saxtalaşdırılmasaydı, mən burada dörd il əvvəl olardım. Biz həmin müqaviləni dörd il əvvəl imzalaya bilərdik. Lakin bu, baş vermədi. Bayden administrasiyası həqiqətən çox az iş gördü, əslində, heç nə etmədi. Bu iş üçün heç nə etmədilər. Mənim solumda və sağımda iki çox ağıllı insan əyləşib. Onlarla tanış oldum, onlar çox ağıllı insanlardır. Düşünmürəm ki, onlar nə vaxtsa məni məyus etsinlər. Onlar müəyyən işlərə görə mənə zəng edə bilərlər. İndi mən onları sınaqdan keçirəcəyəm və onlar mənə zəng edəcəklər, çünki bunu sevirlər. Lakin onlar hər hansı problem yaratmayacaqlar.

Bizim çox əhatəli sazişimiz var. Bu, sülh sazişidir, atəşkəs deyil. Bu, elə bir məsələ deyil ki, sonraya saxlayaq. Bu, sülh sazişidir və onlar bir-biri ilə çoxlu işgüzar əlaqələr yaradacaqlar. Onlar Birləşmiş Ştatlarla iş quracaqlar və mən isə hər zaman, ən azı burada olduğum zaman onların nə dərəcədə ağıllı, nə dərəcədə yaxşı insan olduqlarını xatırlayacağam.

Ticarət və digər məsələlərə gəldikdə, biz hər zaman 100 faiz dərəcəsində işləyirik. Biz onlara yaxşı olması üçün öz yolumuzla gedəcəyik. Onlar çox yaxşı iş gördülər və çox cəsarət göstərdilər. Onlar dünyanın çox mürəkkəb, olduqca çətin bölgəsindən gəliblər. Bu, dünyanın çox çətin, lakin mühüm hissəsidir. Onlar ağıllı, lakin məğrur insanlardır. Bilirsiniz, onların böyük enerji sərvətləri var. Mən Kris ilə söhbət etdim və o dedi ki, onların sərvəti çox böyükdür. Lakin sərvət hər zaman problemləri həll etmir. Başqa məsələlər tələb olunur. Onlar çox xoş təəssürat bağışlayan iki liderdir və onlarla işləmək şərəfdir.

Mən həyatları xilas etmək istəyirəm. İnsan həyatını xilas etməkdən məmnun oluram. Bu belədir! Bilirsiniz, insan həyatını xilas etdiyin təqdirdə, dinc, sülhsevər dünya yaranır. Adətən, bu, kifayət qədər yaxşı nəticə verir. Mən hər kəsə, xüsusən də bu gün addım atmağa cəsarətli olmuş iki böyük liderə təşəkkürümü bildirirəm. Onlar tarix kitablarına düşəcəklər. Burada iştirak etmək böyük şərəfdir.

Çox sağ olun.

# Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsi

**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib.**



**Vüsal Mətləb,** AzTV-nin müxbiri**: Xoş gördük, cənab Prezident. Siz Amerika Birləşmiş Ştatları Prezidenti cənab Donald Trampın dəvəti ilə bu ölkədə səfərdəsiniz və bu gün Azərbaycanda hər kəs Vaşinqtondan xəbərlər gözləyir. Odur ki, bu müsahibəyə görə təşəkkür edirik. İcazənizlə, suallara keçək.**

**Cənab Trampla görüşünüzü və Amerika Birləşmiş Ştatları-Azərbaycan arasında Strateji Tərəfdaşlığa dair Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması ilə bağlı sənədin əhəmiyyətini və ümumilikdə bu səfərin nəticələrini necə qiymətləndirərdiniz?**

**Prezident İlham Əliyev:** Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir.

Prezident Trampla görüşümüz çox səmimi şəkildə keçdi. Deyə bilərəm ki, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda, bildiyiniz kimi, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni, sadəcə olaraq, bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni, biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik. Xüsusilə cənab Trampın və onun administrasiyasının nümayəndələrinin - komandasının Azərbaycana olan müsbət münasibətini, yəqin ki, tamaşaçılar da bizim keçirdiyimiz görüşlərdən və mətbuat konfransındakı ab-havadan hiss ediblər.

**(ardı 5-ci səhifədə)**

# Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsi

**(əvvəli 4-cü səhifədə)**



Bu xoş münasibət, əlbəttə ki, çox önəmli bir amildir. Bu nöqteyi-nəzərdən səfərin çox böyük əhəmiyyəti var. Bu, Prezident Trampla mənim birinci görüşümdür. Yenə də demək istəyirəm ki, görüş çox səmimi şəkildə keçdi. Onun Azərbaycanla bağlı olan bilgiləri, sözün düzü, məni təəccübləndirdi. O, bir çox məsələləri dərindən bilir. Azərbaycanın önəmini, onun geosiyasi əhəmiyyətini, Azərbaycanın Amerika Birləşmiş Ştatlarına həmişə dost ölkə olmasını cənab Tramp çox yaxşı bilir. Əlbəttə ki, şəxsi təmaslar bizim münasibətlərimizdə önəmli rol oynayacaq. Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək.

**Oubai Şahbandar,** AnewZ televiziyasının müxbiri: **Cənab Prezident, çox möhtəşəm, tarixi bir gündür. Siz və Baş nazir Paşinyan hətta Nobel Mükafatı Komitəsinə birgə müraciət edəcəyinizə dair fikir söylədiniz. Biz eşitdik ki, Prezident Tramp Sizin baxışınızı və liderliyinizi alqışlayır. Siz də bu gün bu razılaşmaya səbəb olan Prezident Trampın uzaqgörən rəhbərliyini yüksək dəyərləndirirsiniz. Bildiyiniz kimi, Prezident Trampla şəxsi münasibətlər çox önəmlidir. Rəhbərlər arasında münasibətə, Prezident Trampla şəxsi münasibətlərinizə necə qiymət verərdiniz? Prezident Trampın onilliklər əvvəl Konqres tərəfindən qəbul edilmiş və Amerikanın Azərbaycana yardımına mane olan 907-ci düzəlişi dayandırmasını görmək Sizin üçün nə dərəcədə əhəmiyyətli idi. Bu, Azərbaycan və ABŞ üçün yeni bir məqamdırmı?**

**Prezident İlham Əliyev:** Əlbəttə, belədir! Əminəm ki, biz münasibətlərimizdə yeni səhifə açırıq. Şəxsi təmasa gəldikdə, bu, Prezident Trampla bizim ilk görüşümüz idi. Çox mehriban, səmimi və nəticəyönümlü görüş keçdi. Təbii ki, mən Prezident Trampı əvvəlki prezidentlik müddətindən və bu altı ayda gördüyü işlərdən tanıyırdım. Prezident Tramp mənim kim olduğumu bilmirdi, amma o, mənim haqqımda komanda üzvlərindən eşidib. Təbii ki, Prezident Trampa mənim şəxsi münasibətim hər zaman çox müsbət olub və hətta keçən ilin ortalarında mənə ABŞ-dakı seçkilərlə bağlı sual verəndə, mən düşündüyümü açıq şəkildə demişdim. Demişdim ki, biz onu dəstəkləyirik. Çünki o, yəqin ki, müharibələr başlamayan yeganə Amerika prezidentidir və bu həqiqətdir. O, Azərbaycan xalqı kimi ailə dəyərlərinə önəm verən insandır. Təbii ki, bu gün mətbuat konfransında qeyd etdiyim kimi, o, bu altı ay ərzində qeyri-mümkün görünən işlər gördü: istər Afrikada, Asiyada və Cənubi Qafqazda. O, sülh gətirir və ortaya nəzərəçarpan nəticələr qoyur. Beləliklə, mən bu baxımdan bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə bu şəxsi münasibətlər ölkələrimiz arasında dövlətlərarası əlaqələrə çox müsbət təsir göstərəcək.

Əlbəttə ki, "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə,biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra bildiyiniz kimi, 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Dayandırılmaması bizim üçün böyük şok oldu, çünki Bayden administrasiyasından belə bir yanaşma gözləmirdik. Əfqanıstanda bizə ehtiyac olmadığına görə Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə buna əl atdı. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, yəqin ki, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi. Əslində, bu, Bayden administrasiyası ilə onların hakimiyyətinin sonuna qədər düzəlməyən əlaqələrimizin ciddi şəkildə pisləşməsinə səbəb oldu. Beləliklə, münasibətlərimiz dərin böhran içində idi.

Odur ki, Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var. Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, artıq ədalətsizliyin artıq aradan qalxdığını göstərir. Beləliklə, bu, Prezidentin adından çox mühüm siyasi jest idi. Eyni zamanda, bu gün onun ofisində bu sənədlə bərabər, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında sənədi də imzaladıq. Bu iki mühüm hadisə bu gün baş verib. Buna görə də mən avqustun 8-ni dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab edirəm və bu da bütün regiona çox müsbət təsir göstərəcək. Şübhəsiz ki, bu gün Azərbaycan ilə Ermənistan arasında baş verənlər Cənubi Qafqazda sülh, sabitlik və firavanlıq istəyənlərin hamısı üçün, bütün region üçün çox əhəmiyyətli olacaqdır.

**Abbasəli Yadigarov,** AZƏRTAC-ın müxbiri: **Cənab Prezident, bu gün çox önəmli sənədlər imzalandı. Hamıya yaxşı məlumdur ki, İkinci Qarabağ müharibəsində Zəfərdən sonra sülh müqaviləsi təşəbbüsünü məhz Azərbaycan irəli sürmüşdür. Bu baxımdan, bu gün imzalanan sənədlərin əhəmiyyətini necə şərh edərdiniz?**

**Prezident İlham Əliyev**: Bəli, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Ermənistan-Azərbaycan gələcək əlaqələri və təmasları sahəsində bir boşluq, bir vakuum yaranmışdı. O vaxt hələ fəaliyyət göstərmək istəyən ATƏT-in Minsk qrupu da demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Onlar bilmirdilər ki, nə etmək lazımdır. Çünki Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir. Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münaqişəsi hərbi-siyasi yollarla öz həllini tapmışdır. Azərbaycan məhz o vaxt gələcək baxışlarını ortaya qoydu. Yəni ki, bu boşluq çox davam edə bilməz. Yəni, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmalıdır və onun təşəbbüskarı qeyd etdiyiniz kimi, biz olmuşuq. Biz o təşəbbüsü irəli sürəndən sonra yenə də heç yerdən cavab gəlmədi. Onda biz məlum əsas beş prinsipi ortaya qoyduq və bunun üzərində sülh sazişinin mətnini də biz hazırlamışdıq.

Bildiyiniz kimi, ondan sonra bizim təşəbbüsümüzlə danışıqlar prosesi başlamışdı. Danışıqlar prosesi o qədər də hamar getmirdi. Onun da əsas səbəbi ondan ibarət idi ki, o vaxt Ermənistan tərəfi sülh sazişinə Qarabağla bağlı müddəanı daxil etdirmək istəyirdi. Halbuki bu, heç bir məntiqə sığmayan, heç bir hüquqi və siyasi əsası olmayan məsələdir. Biz Ermənistan tərəfinə izah etməyə çalışırdıq ki, bu, bizim daxili məsələmizdir və dövlətlərarası sazişə hər hansı bir ölkənin daxili məsələsi daxil oluna bilməz. Ancaq buna baxmayaraq, Ermənistan təkidlə öz mövqeyindən geri çəkilmək istəmirdi.

Yəqin ki, yadınızdadır ondan sonra Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüssel görüşləri keçirilmişdir. Ancaq yenə də əsas fundamental məsələ imkan vermirdi ki, tərəflər bu məsələdə razılığa gəlsinlər. Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib.

Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər. Lakin bu gün mən bəzi suallara münasibətimi bildirəndə dedim ki, bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib. Hesab edirəm ki, bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik olan məsələdir. Odur ki, bugünkü gün, o cümlədən buna görə tarixi gün sayıla bilər. Həm Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq.

**Vüsal Mətləb: Cənab Prezident, Vətən müharibəsindən sonra sülh müqaviləsinin imzalanması üçün Ermənistan qarşısında bəzi şərtlər qoymuşdunuz. Onlardan birincisi ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı idi. Hansı ki, bu gün Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ATƏT-in Baş katibinə bununla bağlı müraciət imzaladılar. İkinci şərt Ermənistanın əsas qanunundan - Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılması ilə bağlı idi. Bu, indiki halda nə qədər real görünür?**

**Prezident İlham Əliyev**: Məncə, tam real görünür. Çünki birincisi onu deməliyəm ki, bizim bütün şərtlərimiz tam məntiqli, əsaslı və qanunauyğundur. Müxtəlif mərhələlərdə Ermənistan cəmiyyətində və hakim dairələrində belə bir fərziyyə irəli sürülürdü ki, sanki Azərbaycan Ermənistanın daxili işlərinə qarışmaq istəyir və hətta danışıqlar zamanı dəfələrlə belə bir məsələ qaldırılmışdı. Bizim isə mövqeyimiz ondan ibarət idi ki, bu, belə qəbul edilməməlidir. Bu, birbaşa bizə aidiyyəti olan məsələdir. Bizim ərazi bütövlüyümüzə olan açıq tələbdir, iddiadır. Ona görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz.

Bizim mövqeyimiz hər zaman ardıcıl, məntiqli, əsaslı idi və biz öz mövqeyimizdən geri addım atmamışıq. Çünki heç vaxt Ermənistan qarşısında qeyri-real və qəbul edilə bilməyəcək şərtlər də qoymamışdıq. Amma nədənsə Minsk qrupunun ləğvi ilə bağlı bizim əsaslı təklifimiz mənfi reaksiya ilə üzləşirdi. Halbuki dəfələrlə biz izah etməyə çalışırdıq ki, bir halda Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bir halda artıq Ermənistan özü deyir ki, Qarabağ Azərbaycandır, Minsk qrupunun de-yure qalması tamamilə məntiqsizdir. Onsuz da o, öz funksional mahiyyətini itirmişdir və biz heç vaxt imkan verməzik ki, bu, hər hansı bir formada canlansın, yaxud da hansısa başqa formaya minsin. Ona görə bu gün sülh sazişinin paraflanması və Minsk qrupunun ləğvi ilə bağlı bizim müştərək müraciətimiz, hesab edirəm ki, birinci maneəni aradan qaldırıb. Yenə də deyirəm, bu gün bu paraflanma Ağ Evdə baş tutdu. Ona görə mən şübhə etmirəm ki, Ermənistan Konstitusiyası dəyişdiriləndə, - Ermənistan tərəfi özü bunu bildirir ki, belə dəyişikliklər edilməlidir, - Azərbaycana olan ərazi iddiası oradan çıxarılacaq. Əks təqdirdə, bu, birinci növbədə Amerika Birləşmiş Ştatlarına hörmətsizlik olacaq. Hər kəs bilir və bizim mövqeyimiz, demək olar ki, bütün aparıcı beynəlxalq aktorlar, o cümlədən Amerika Birləşmiş Ştatları tərəfindən anlayışla qarşılanır. Çünki sülh sazişi imzalananda hər bir məsələ öz həllini tapmalıdır və bizə qarşı olan əsassız ərazi iddiası oradan çıxarılmalıdır. Ona görə mənim bu məsələ ilə bağlı şübhəm yoxdur. Yenə də deyirəm, bunun nə vaxt olacağı Ermənistanın öz işidir. Biz burada hər hansı bir təklif irəli sürə bilmərik. Ancaq mən hesab edirəm ki, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki məncə, vaxt itirmək lazım deyil. Bir halda ki, artıq Azərbaycanla Ermənistan sülh sazişini paraflayıb, onun rəsmi imzalanması da çox çəkməməlidir.

**Oubai Şahbandar**: **Cənab Prezident, Vaşinqtona səfəriniz, sülh sazişinin paraflanması, Prezident Trampla görüşünüz Sizi və Azərbaycanı milyonlarla amerikalıya ilk dəfədir ki, tanıdır. Azərbaycanı tanımayanlar, bəlkə də Azərbaycanın harada olduğunu bilməyənlər, yaxud müəyyən yanlış təsəvvürlərə malik insanlar sizinlə tanış ola bildilər. Bəzi Amerika media qurumları və beyin mərkəzləri arasında yaranan bir sıra narahatlıqlara necə cavab verərdiniz: onlar Qarabağda xristianların qorunub-qorunmayacağından narahatdırlar. Nəzərə alsaq ki, Tramp ticarət marşrutu qurulacaq, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, həm də Amerikanın ticarət maraqları üçün nə qədər vacibdir?**

**Prezident İlham Əliyev:** Bəli, bilirsiniz ki, Prezident Trampın əsaslı olaraq saxta xəbərlər adlandırdığı bəzi Birləşmiş Ştatlar mediasında Azərbaycan iblis donunda təqdim olunurdu. "Washington Post", "New York Times", "Newsweek" və bir çox başqa media qurumları mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu əsasən bu gün erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri ediblər. Bu gün baş verənlərə sevinmək əvəzinə, onlar çox məyus olurlar, çünki onların maraqları tamamilə fərqlidir. Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə özlərini inkişafdan 30 il geri atdılar.

Azərbaycanla bağlı bütün bu şayiələr və yalan məlumatlar ölkəmizi tanıyanlar üçün tamamilə qərəzli səslənir. Çünki Azərbaycan etnik və dini müxtəlifliyi ilə məşhur olan nadir ölkələrdən biridir. Bütün dini obyektlər dövlət tərəfindən qorunur. Azərbaycanda heç vaxt qarşıdurma, hətta etnik, dini fərqlər zəminində anlaşılmazlıq olmayıb. Əksinə, bu gün Azərbaycan multikulturalizmin mərkəzlərindən biridir. Burada müxtəlif dini və etnik qrupların nümayəndələri bir ailə kimi yaşayırlar. Məncə, bu gün baş verənlər hələ də ya reallığı bilməyən, ya da bilərəkdən yanlış təsəvvürlər yaratmağa çalışanlara tutarlı cavab olacaq.

O ki qaldı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinə, bilirsiniz ki, bu mövzu ətrafında biz son beş ildə nə qədər şayiələr, nə qədər təxribatlar ilə üzləşmişik. Müxtəlif ölkələrin rəhbərləri Azərbaycanın guya ermənilərə hücum etməyi planlaşdırdığı barədə şayiələr yayırdılar, ölkəmizin bu ərazini guya güc yolu ilə ələ keçirməyi planlaşdırdığını deyirdilər. Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi, çünki bu yanlış təsəvvür Vaşinqton da daxil olmaqla, artıq yaranmışdı. Bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi və biz bunu dəqiq bilirik. Çünki bir çox hallarda avropalı tərəfdaşlarımızla söhbətlərdə onlar bizə bu məlumatın Baydenin komandasından gəldiyini deyirdilər. Onlar Azərbaycanın guya aqressiv niyyətləri barədə qəsdən şayiələr yayırdılar. Hətta Prezident Trampın administrasiyasının ilk aylarında bəzi dövlət qurumlarında köhnə komandanın hələ də çalışan nümayəndələrindən gələn belə yalanlar olub. Onların fəaliyyətinə əsas təsiri Azərbaycana nifrət edən "Human Rights Watch", "Freedom House" kimi QHT-lər və ya USAID, "Azadlıq" radiosu göstərib. Bilirsiniz ki, Prezident Tramp dünyanı USAID adlanan bu fəlakətdən məharətlə xilas etdi. Beləliklə, bu, bizim üçün bu məlumatların yanlış olduğunu izah etmək bir növ çağırış idi. Ona görə də izah etməli idik ki, bizim belə bir niyyətimiz yoxdur.

Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliynə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq.

Eyni zamanda, biz Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpasına başlayırıq. Deməli, bizə bu 40 kilometrlik dəmir yolu lazımdır ki, Azərbaycanın iki hissəsini birləşdirə bilək. Bu, təkcə dəmir yolu ilə bitmir. Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük. Beləliklə, bu, hər şeydən əvvəl, Bayden administrasiyasının yetişdirdiyi bütün anti-Azərbaycan rəvayətlər və sərəncamında olan siyasi infrastruktura - media, QHT-lər, USAID və bəzi korrupsioner siyasətçilərə cavab idi. Bugünkü hadisə korrupsiyaya görə dəmir barmaqlıqlar arxasında olan Menendez kimiləri tamamilə sıradan çıxarır. Yaxud Adam Şiff. Mən gələndə öyrəndim ki, Merilend prokuroru Adam Şiffə qarşı ipoteka saxtakarlığına görə cinayət işi açıb. Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər - Menendez, Şiff, Peloni, Pelosi, Şermann, Marki, Kristofer Smit və başqaları. Bütün bu insanlar Azərbaycana nifrət edirlər - bilmirəm niyə, yəqin ki, Ermənistan lobbisi buna görə onlara pul ödəyirdi. Onlar Azərbaycanın əleyhinə mütəmadi olaraq fəaliyyət göstərən bir qrup ciddi siyasətçi idi. Bu gün Azərbaycan ilə Ermənistan arasında imzalananlar bizim niyyətlərimizi açıq şəkildə nümayiş etdirir – göstərir ki, biz sülh istəyirik, amma biz əlaqələrin qurulmasını da istəyirik. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik ki, bu da daha geniş region, Ermənistanın özü üçün də çoxlu imkanlar vəd edəcək.

Mən Ermənistanın Baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz. Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq.

**Oubai Şahbandar**: **Bölgəyə daha çox Amerika sərmayələrinin gəlişini gözləyirsinizmi? Biz tarixi imzalanma mərasimində Kris Raytın iştirak etdiyini gördük. Söz təbii ki, SOCAR və "ExxonMobil" arasında imzalanmış memorandumdan gedir.**

**Prezident İlham Əliyev:** Şübhəsiz ki, belədir. Əminəm ki, dünən "ExxonMobil" və SOCAR arasında əməkdaşlığa dair imzalanan memorandum böyük layihə ilə nəticələnəcək. Əvvəlcədən nə isə demək istəmirəm, amma Azərbaycanda böyük neft yatağının kəşfi ehtimalı yüksəkdir. Bildiyiniz kimi, "Exxon" dünyanın aparıcı enerji şirkətidir və müasir texnologiyalar sahəsində böyük təcrübəyə malikdir. "Exxon"un, həmçinin Azərbaycanda böyük təcrübəsi var. "Exxon" bizim "Azəri-Çıraq-Günəşli" layihəmizə ilk olaraq 1994-cü ildə qoşulmuşdu və dünən burada xüsusi elçi cənab Uitkoffun, ABŞ-ın enerji nazirinin müavininin və mənim iştirakımla imzalanma mərasiminin keçirilməsi faktiki olaraq nümayiş etdirir ki, biz bu layihənin gələcəyinə inanırıq. İnanın, inanmasaydıq, memorandumun imzalanmasında iştirak etməzdik. Mən çox nadir hallarda memorandum imzalanmasında iştirak edirəm. Mən bəzən müqavilələrin imzalanmasında iştirak edirəm, lakin bu, memorandumdur. Əlimizdə bir sıra amillər, texniki amillər var ki, onlar yeni karbohidrogen ehtiyatlarının kəşfinə işarə edir. Bəlkə də son on il və ya daha uzun müddətdə ədalətsiz şəkildə ayrı-seçkiliyə məruz qalan mədən yanacağı Prezident Trampın baxışı və siyasəti sayəsində yenə də dəbdədir. Səfər çərçivəsində heyətimizin üzvləri beynəlxalq maliyyə təşkilatları, ABŞ-ın "Ex-Im" Bankı ilə mədən yanacağı sahəsində layihələr, karbohidrogenlərin nəqli infrastrukturunda potensial maliyyəyə dair danışıqlar aparıb. Buna görə də enerji mövzusu əməkdaşlığımızın mühüm hissələrindən biri olaraq qalmağa davam edəcək.

Prezident Trampla imzaladığımız memorandumda enerji əməkdaşlığı xüsusi yer tutur. Beləliklə, biz enerji deyəndə neft, qaz, potensial olaraq bərpaolunan enerji mənbələrini nəzərdə tuturuq. Bu gün NATO-nun 10 üzvünü, ABŞ-ın 10 müttəfiqini təbii qazla təchiz edirik. Biz boru kəməri ilə qaz tədarükü üzrə 14 ölkəni əhatə edirik. Deməli, bu baxımdan, - qaz kəmərini nəzərdə tuturam, - Azərbaycan dünyanın qabaqcıl ölkələrindən biridir. Belə ki, 10 NATO, 10 Aİ üzvü bizdən qaz alır. Biz bu yaxınlarda Suriyaya təbii qaz tədarük etməyə başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna daxil olmuşuq və coğrafiyamızı Avropada, eləcə də Yaxın Şərqdə genişləndirəcəyik. Bu, əslində, enerji sahəsində gələcək gündəliyimizin yalnız bir hissəsidir.

Amerika Birləşmiş Ştatları ilə süni zəka, rəqəmsal transformasiya üzrə yaxından işləmək planlarımız var. Mənim buraya səfərim zamanı artıq komandamızın üzvləri ilə Amerika şirkətləri arasında ilkin müzakirələr baş tutub. Yeni görüşlər də olacaq. Beləliklə, həqiqətən də bu gün biz bütün istiqamətlər üzrə - təhlükəsizlik, sabitlik, Cənubi Qafqazda sülh, iqtisadi imkanlar, investisiyalar, enerji təhlükəsizliyi və bir çox digər sahələr baxımından tarixi bir günün şahidi oluruq.

**Oubai Şahbandar**: Çox sağ olun, cənab Prezident.

***AZƏRTAC***

# Əldə olunan nəticə bütün regionun inkişafına müsbət təsir göstərəcək

**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Telefon danışığı əsnasında iyulun əvvəlində Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri və səfər çərçivəsində aparılmış səmərəli müzakirələr, əldə olunmuş razılaşmalar məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub. Bundan sonra atılmalı olan addımların Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanmasına və onun ratifikasiyasına zəmin yaradacağı qeyd edilib.

Prezident İlham Əliyev bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu vurğulayıb, həmçinin regional nəqliyyat bağlantıları ilə əlaqədar razılaşmaların vacibliyini bildirib.

Şavkat Mirziyoyev öz növbəsində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bunun bütün regionun inkişafına müsbət təsir göstərəcəyini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı sərmayələrin, o cümlədən Özbəkistanın Qarabağda həyata keçirdiyi layihələr, SOCAR və "Uzbekneftegaz" Konsorsiumu ilə Özbəkistan Respublikasının Hökuməti arasında imzalanmış Pay Bölgüsü Sazişinin önəmi vurğulanıb.

***Prezidentin Mətbuat Xidməti***

# Sinqapur Respublikasının Prezidenti Zati-aliləri cənab Tarman Şanmuqaratnama

**Hörmətli cənab Prezident!**

Sinqapur Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Sinqapur ötən dövr ərzində böyük yol keçərək dünyada sürətlə və dinamik inkişaf edən, iqtisadiyyat, sənaye, elm, müasir texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmiş dövlətə çevrilmişdir.

İnanıram ki, Azərbaycan-Sinqapur dostluq əlaqələrini və qarşılıqlı faydalı əməkdaşlığını inkişaf etdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 avqust 2025-ci il**

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**



Türkiyəli nazir Azərbaycan–Ermənistan liderlərinin Vaşinqton görüşü zamanı əldə edilmiş tarixi nailiyyətlər münasibətilə ölkəmizi səmimi-qəlbdən təbrik edib.

Nazirlər əldə edilmiş razılaşmaların, Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamənin bölgədə sülh və sabitliyin təmin olunması üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq müzakirə olunub.

# XİN Prezident İlham Əliyevin ABŞ səfərinin nəticələrinə dair məlumat yayıb



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) Prezident İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına səfərinin nəticələrinə dair məlumat yayıb.**

"Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb.

Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Səfər, həmçinin iki ölkənin prezidentləri arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncamın imzalanması ilə əlamətdar olub. Azərbaycan–ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfəri, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələrlə əlamətdar olub. Səfər zamanı, Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin sammiti keçirilib və bu görüşün nəticəsində Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamə imzalanıb. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb.

Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstə, Azərbaycan tərəfi Sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir.

Birgə Bəyannamədə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Burada, regionda kommunikasiyaların açılması çərçivəsində Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsinin zəruri olduğu vurğulanıb.

Sənəddə, həmçinin Ermənistan ərazisində xüsusi bağlantı layihəsi – "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətin ünvanlanması 2020-ci ildən bəri Azərbaycan tərəfinin davamlı olaraq gündəlikdə tutduğu, sülh və normallaşma prosesi üçün ən ciddi əngəllərdən birinin aradan qaldırılması istiqamətində digər vacib addımdır.

Bununla yanaşı, səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Sənəd şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirmək və Azərbaycan Respublikasında həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Beləliklə, Azərbaycan Prezidentinin ABŞ-a səfəri çərçivəsində Azərbaycan–ABŞ arasında əldə edilmiş razılaşmalar və Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində nəticələr tarixi əhəmiyyətə malikdir".

# Donald Tramp, İlham Əliyev və Nikol Paşinyan arasında görüş qlobal medianın diqqət mərkəzində

**Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı Vaşinqtonda keçirilən görüş, liderlərin imzaladığı Birgə Bəyannamə və onların bəyanatları dünyanın nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.**

**"Reuters"** agentliyinin dərc etdiyi geniş məqalədə qeyd olunur ki, Azərbaycan və Ermənistan cümə günü ABŞ Prezidenti Donald Trampla görüş zamanı ABŞ-ın vasitəçiliyi ilə onilliklər davam edən münaqişədən sonra ikitərəfli iqtisadi əlaqələri gücləndirəcək və münasibətlərin tam normallaşmasına doğru hərəkət edəcək sülh sazişinin layihəsini imzalayıblar.

Cənubi Qafqazdakı rəqiblər arasında razılaşmanın Tramp administrasiyası üçün mühüm nailiyyət olduğunu qeyd edən agentlik yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı Ağ evdə keçirilən imzalanma mərasimində salamlayan Tramp deyib: "Uzun müddətdir, 35 ildir ki, onlar döyüşüblər, indi də dostdurlar və onlar uzun müddət dost olacaqlar".

**"Reuters"** qeyd edir ki, razılaşmaya ABŞ-ın Cənubi Qafqazdan keçən strateji tranzit dəhlizinə eksklüziv inkişaf hüquqları daxildir ki, bu da Ağ evin qənaətinə görə, enerji və digər resursların ixracını asanlaşdıracaq. Tramp bildirib ki, ABŞ enerji, ticarət və texnologiya, o cümlədən süni intellekt sahələrində əməkdaşlığı genişləndirmək üçün hər bir ölkə ilə ayrı-ayrı müqavilələr imzalayıb. O, Azərbaycan ilə ABŞ arasında müdafiə sahəsində əməkdaşlığa qoyulan məhdudiyyətlərin də aradan qaldırıldığını deyib. Hər iki lider Trampı münaqişənin sona çatmasına kömək etdiyinə görə tərifləyib və onu Nobel Sülh Mükafatına namizəd göstərəcəklərini bildirib.

**"New York Post"** qəzetinin dərc etdiyi "Ermənistan və Azərbaycan çoxdan gözlənilən sülhə imza atdı və Trampın Nobel Sülh mükafatına namizədliyini irəli sürdülər" sərlövhəli məqaləsində qeyd olunur ki, Prezident Tramp regionda yeni dəmir yolu ətrafında tikilən sülh sazişini imzalamaq üçün cümə günü Ağ evdə çoxdandır ki, münaqişə vəziyyətində olan Ermənistan və Azərbaycanın liderlərini qəbul etdi, Görüş zamanı liderlər ABŞ Prezidentini Nobel Sülh Mükafatına birgə tövsiyə etməyə söz verdilər.




**"Euronews"** telekanalının saytında dərc olunan "İnanılmaz sülh: Ermənistan və Azərbaycan onilliklər ərzində davam edən münaqişədən sonra sülhə gəlir" sərlövhəli məqalədə qeyd olunur ki, təxminən dörd onillik davam edən və son vaxtlara qədər sonu görünməyən qanlı münaqişədən sonra bu iki ölkə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişi imzaladılar. İndi Cənubi Qafqazda mərkəzi rol oynamayan Rusiya bu tarixi məqamda nəzərə çarpmır.

Yazıda diqqətə çatdırılıb ki, Ermənistan və Azərbaycan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlanan böyük tranzit dəhlizinin yaradılması barədə razılığa gəliblər. O, materik Azərbaycanı və onun müttəfiqi Türkiyə ilə həmsərhəd olan Naxçıvan bölgəsini Ermənistan ərazisi ilə birləşdirəcək. Ağ evin sözçüsü bildirib ki, yeni tranzit dəhlizi "Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə və xalqına hörmət etməklə iki ölkə arasında maneəsiz əlaqə yaratmağa imkan verəcək".

**"USA Today"** qəzetinin "Tramp Ermənistan və Azərbaycan liderləri ilə sülh yolunda mühüm addım atdı" sərlövhəli məqaləsində bildirilir ki, Prezident Donald Tramp Ermənistan və Azərbaycan liderləri ilə Ağ evdə iki keçmiş sovet respublikası arasında onilliklərlə davam edən müharibəyə son qoyan və regionda kritik nəqliyyat vasitələrini yenidən açan Birgə Bəyannamə imzalayıb.

Avropa Şurasının rəsmi xəbər saytında isə "Ermənistan-Azərbaycan: Möhkəm sülhə zəmin yaradan təməl daşı" sərlövhəli material dərc olunub. Diqqətə çatdırılıb ki, Avropa Şurasının Baş katibi Alen Berse aşağıdakı bəyanatla çıxış edib: "Mən 2001-ci ildən Şuranın hər iki üzvü olan ölkələr arasında uzun müddətdir davam edən münaqişənin yekun həllinə yol açan Ermənistan-Azərbaycan sülh sazişinin Vaşinqtonda bu gün paraflanmasını səmimiyyətlə alqışlayıram. Bu inkişaf Cənubi Qafqazda - bütün xalqların rifahı və təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən regionda davamlı sülh yolunda tarixi bir mərhələdir. Avropa Şurası Ermənistan və Azərbaycan öz ortaq tarixlərinin bu səhifəsini açarkən, onları dəstəkləməyə hazırdır. Mart ayında iki ölkə Sülh və Dövlətlərarası Münasibətlərin qurulması haqqında Saziş layihəsi üzrə danışıqların yekunlaşdığını elan edəndə, bu, məni xüsusilə ruhlandırdı. Sülh səyləri hər iki lider üçün daimi müzakirə mövzusu olaraq qalırdı. Mən bu məsələni ilk dəfə keçən il ÇOP münasibətilə Bakıda Prezident Əliyevə ünvanlamışdım və aprel ayında Antalyada keçirilən ikitərəfli görüşdə də davam etdirdim. Hər iki xalqın liderlərini və vətəndaşlarını ədalətli və davamlı sülh yolunda göstərdikləri siyasi iradə, əzm və cəsarətə görə alqışlayıram. Onilliklər boyu davam edən etimadsızlıq, ərazi mübahisələri və humanitar problemlərin aradan qaldırılması hər tərəfdən çətin, lakin zəruri kompromislər tələb edir. Biz hər iki ölkəni təkcə sülhə deyil, həm də etimadın bərpası istiqamətində əllərindən gələni etməyə çağırırıq".







**"Global News"** nəşrində dərc olunan "Azərbaycan–Ermənistan sülh sazişi ABŞ-a nəqliyyat dəhlizi hüququ verir" sərlövhəli məqalədə qeyd olunur ki, Cənubi Qafqazın iki ölkəsinin liderləri Ağ evdə keçirilən sülh sammitində onilliklərlə davam edən münaqişəyə son qoymağa yönəlmiş saziş imzalamazdan əvvəl əl sıxıblar. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı bir araya gətirən ABŞ Prezidenti Donald Tramp, öz növbəsində, onların əllərini sıxıb.

**"ABC News"** telekanalının saytında dərc olunan məqalədə qeyd edilir ki, Ağ evdə Trampın iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin sülh barədə razılığa gəlməsi tarixi və böyük əhəmiyyət daşıyan hadisədir. ABŞ Prezidenti bildirib ki, liderlər Oval Ofisdə döyüşləri dayandırmaq, ticarəti açmaq və bir-birlərinin suverenliyinə hörmət etmək öhdəliyi götürən sənədlər imzalayıblar. O əlavə edib ki, ABŞ hər iki ölkə ilə enerji, ticarət və texnologiya, o cümlədən süni intellekt sahələrində əməkdaşlığı genişləndirmək üçün ikitərəfli saziş imzalayır.

**"The Washington Post"** qəzetinin dərc etdiyi məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan rəsmilərinin Ağ evdə ABŞ-a strateji tranzit dəhlizinə müstəsna inkişaf hüququ verən sülh sazişi imzalaması mühüm qlobal hadisədir. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlanan pakt Azərbaycanı Ermənistan vasitəsilə Azərbaycanın eksklavı olan Naxçıvanla birləşdirəcək və ABŞ-a inkişaf hüququ verən sənəd olacaq.

**Prezident Donald Trampın Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında hər iki ölkənin hökuməti arasında Anlaşma Memorandumunun imzalanması zamanı dilə gətirdiyi fikirlərdən sonra bir anlıq düşündüm. Yadıma hürriyyət aşiqi, yaradıcılığı ilə xalqımızın milli mənlik şüuru və özünüdərkinin inkişafına müstəsna töhfələr vermiş Məhəmməd Hadi düşdü. Daha doğrusu, onun böyük üzüntü ilə qələmə aldığı “yoxdur millətimin imzası bu imzalar içində” ifadəsini xatırladım. Gözümün önündən yaşadığım, hamımızın yaşadığı çətin bir mərhələ, sanki, kino lenti kimi gəlib keçdi.**

# Millətimin İlham Əliyev imzası



Nələri görmədik ki, o mərhələdə? 1988-ci ilin meydan hərəkatı, ermənilərin “Miatsum” adı ilə başlatdığı qəsbkarlıq, 1991-ci il müstəqilliyindən sonra yeni həyat uğrunda mübarizəyə atılan insanımızın uğradıcı xəyal qırıqlığı, hakimiyyət uğrunda mübarizə, çörək növbələri, vətəndaş müharibəsi, işğal, öz dədə-baba yurdlarından didərginlərin ah-nalələri, çadır şəhərciklərində ölən ümidlər, doğma torpaq həsrəti ilə yarımçıq qalan ömürlər, üstəlik, acılar çəkən məmləkətin beynəlxalq miqyasda, az qala, təcavüzkar kimi qələmə verilməsi və daha nələr-nələr.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə respublikamıza, bu dəfə müstəqil Azərbaycana rəhbərliyə başlamasını da gördük, dahi şəxsiyyətin böyük əzm və iradə ilə ölkəmizdə hüquqi, demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğuna başlamasını da, inkişaf və tərəqqini də. Nəzərimdə Prezident İlham Əliyevin hakimiyyətə gəlməsini, dövlət quruculuğu xəttinin dərinləşməsini, inkişafımızın dönməz xarakter almasını, Vətən müharibəsindəki Zəfərimizi, torpaqlarımızın işğaldan qurtuluşunu, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasını və haqqında söz açdığım “Miatsum” kitabının bağlanmasını da canlandırdım.

Bəli, Heydər Əliyev ideyalarına misilsiz sadiqlik nümayiş etdirən, idarəçilikdə varisliyin bənzərsiz və təkrarsız örnəyinə çevrilmiş Prezident İlham Əliyevin yeritdiyi kurs nəticəsində tam əminliklə deyirəm: Var millətimin imzası imzalar içində. Özü də bunu təkcə biz demirik. Dünyanın ən böyük dövlətinin başçısı Tramp bildirir ki, “Xalqınız böyük xalqdır”, “Siz böyük lidersiniz”. Elə bilirik, bu günlərdə, habelə ötən beş ildə təkcə Məhəmməd Hadinin deyil, xalq və millət fədailəri olan mütəfəkkirlərimizin hamısının ruhu şaddır. Ən başlıcası isə Ulu öndər Heydər Əliyevin ruhu şaddır. Çünki bu dahi şəxsiyyətin apardığı mübarizənin Zəfəri özünə yeni təntənə təmayülləri qazanır. Budur, daha bir təmayül. Prezident Donald Tramp üzünü azərbaycanlı həmkarına tutaraq bildirir: “Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm”.

Tam əminliklə deyə bilərik ki, Ulu öndər Heydər Əliyev yaşadığımız Cənubi Qafqaz coğrafiyasında, obrazlı desək, suyun axarını dəyişdi. Tarixən Rusiya və İran kimi dövlətlərin nüfuz dairəsində olan regiona Qərb kapitalını məhz o gətirdi. Ümummilli liderin sayəsində 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycanın dünyaya çıxışı oldu. Söhbət özündə son dərəcə böyük potensial daşımış çıxışdan gedir. O potensial ki, dünyanın yolunu həm Azərbaycandan, həm də ümumən Cənubi Qafqazdan saldı. O potensial ki, erudik təfəkkürü, praqmatizmi və diplomatik məharəti ilə nadir liderlərdən olan Prezident İlham Əliyevin sayəsində dövlətimizi gücləndirdi, beynəlxalq miqyasda söz sahibinə çevirdi və nəhayət, bu gün qarşımızda Zəngəzur dəhlizi reallığı dayanıb. Tramp yolu və ya Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu kimi siyasi adlandırmalara malik reallıq. Bu reallıq “Əsrin müqaviləsi” ilə çıxılmış yolun möhtəşəmliyidir. Deməli, indi dünyaya nəinki pəncərəmiz, qapımız da açıqdır və deməli, imperialist maraqların əhatəsindəki, bir çox hallarda sıxılıb qalmış, ədalətsizliklərlə, haqsızlıqlarla, işğal və məhrumiyyətlərlə üzləşmiş məmləkət obrazı tarixin arxivinə gömülür.

Cənab Tramp Ağ Evin rəmzi açarını kimə təqdim etdiyinin çox yaxşı fərqindədir. Düşünürük ki, hazırda ABŞ, bütövlükdə Qərb dünyası təlatümlü Cənubi Qafqaz coğrafiyasında Azərbaycanın hansı böyük əhəmiyyət daşıdığını, hansı nəhəng işlərə imza atdığını gözəl bilir və çox yüksək qiymətləndirir. Mövcud durumda Ermənistan gedən qatara son anda yetişmiş birini xatırladır. Nəzərə alaq ki, işğalçılıq ölkəni xeyli geri saldı. Ermənistan ona heç nə qazandırmayan qəsbkarlıq niyyətlərinə, avantürizmə görə “Bakı-Ceyhan”da iştirakdan uzaq düşdü. Həmin vaxt Heydər Əliyev şəxsiyyətinin prosesdə müstəsna rolu oldu. Görünür, İrəvan eyni səhvi ikinci dəfə təkrarlamaq istəmir. Həm də ona görə istəmir ki, bu gün Azərbaycan 1991-1993-cü illərdəki Azərbaycan deyil.

Çox tez-tez eşitdiyimiz, müəyyən mənada, klişeləşmiş bir fikir var ki, ölkəmiz 44 günlük Vətən müharibəsindəki Zəfəri ilə Cənubi Qafqazda yeni reallıqlar formalaşdırıb. Bu günlərdə ABŞ-da yaşananlar sözügedən fikrin ən bariz təsdiqidir. İlham Əliyev şəxsiyyətinin yaratdığı bu reallıq elə böyük mahiyyət daşıyır ki, keçmişin xoşagəlməz səhifələrini bağlayır. Keçmişdən söz düşmüşkən, Prezident Tramp “Azadlığı Müdafiə Aktı”na 907 saylı düzəlişi ləğv etdi. O düzəlişi ki, onun nəticəsində 1992-ci ildə torpaqlarının işğalının davam etdiyi Azərbaycan, guya, Ermənistanı blokadaya aldığı bəhanəsi ilə Birləşmiş Ştatların dövlət yardımından məhrum duruma düşdü. Doğrudur, indiyədək ABŞ prezidentləri tərəfindən həmin düzəlişin icrasının dayandırıldığı hallar yaşanıb. Amma indiki durumun məxsusiliyi vurğulanmalıdır. Ona görə vurğulanmalıdır ki, Cənubi Qafqazda münaqişə preambulasını daşıyan düzəlişin ləğvi regiona sülhün gəldiyinin bildirilməsi ilə eyni vaxta təsadüf edir. Bir vacib məqam da var ki, onu dövlətimizin başçısı Vaşinqtonda ölkəmizin media nümayəndələrinə müsahibəsində diqqətə çatdırdı: “Əlbəttə, eyni zamanda, bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunu məhz öz ofisində mənim iştirakım ilə etmək çox bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi”.

Prezident İlham Əliyevin iqtibasındakı fikirlər “907”nin ləğvinin böyük siyasi jest mahiyyətini açıqlayır. Jestin önəmi ondadır ki, ABŞ Azərbaycan-Ermənistan konfliktinə mövcudluq libası geyindirən və uzun müddət istifadə etdiyi alətindən imtina edir. Nəzərə alaq ki, ATƏT-in Minsk qrupu kimi “907” də münaqişə məntiqini qoruyurdu. Yəni, cənab Trampın ədalətsizliyi aradan qaldırması da sülhə xidmətin səmimiyyət nişanəsi, lider böyüklüyüdür. Deməli, böyüklük, heç də hərbə-zorbalıqda yox, məhz bu cür incə jestlərdədir. Qoy, bütün dünya görsün ki, Amerika Azərbaycana qarşı yanaşmasını dəyişir. Hesab edirəm ki, ədalətin bundan böyük zəfəri mümkünsüzdür. Ona görə Trampa xitabən “Əlbəttə, Siz möcüzəyə imza atdınız”, - deyən dövlətimizin başçısı amerikalı həmkarının uzun müddətdir davam edən münaqişəni başa çatdırmasını yüksək qiymətləndirir, lider böyüklüyündəki səmimiyyətə eyni səmimiyyət və nəzakətlə cavab verir.

Dahi Hüseyn Cavid deyirdi ki, kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü. Bu mənada Prezident İlham Əliyevin Trampa iltifatı sülhyaratma missiyasına qədirbilən münasibət göstəricisidir, alicənablıqdır. İlham Əliyev şəxsiyyətinin dahiliyi onun həm də qan izini kəsməsində, barışı müharibə yolu ilə qazanmasındadır. Bu, son dərəcə prinsipiallıq və qətiyyət tələb edən inanılmaz xarakterdir. İlham Əliyev dönməz xarakteri ilə beynəlxalq aləmi Azərbaycanın ədalətli müharibə apardığına inandırmaqla yanaşı, dünyanı sülhün də ədalətli olmasının vacibliyinə razı salmağı bacardı.

Bütün bunlar onu deməyə əsas verir ki, bu günlərdə dövlətimizin başçısının liderliyinin növbəti təntənə anları yaşandı. Söhbət, əlbəttə ki, Vaşinqtonda imzalanmış Birgə Bəyannamədən gedir. O bəyannamədən ki, “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in razılaşdırılmış mətninin xarici işlər nazirləri tərəfindən paraflanmasının təsdiqlənməsini nəzərdə tutmaqla bərabər, Bakı ilə İrəvan arasındakı barış mühitinin vacib komponentlərini müəyyənləşdirirdi. Bu müəyyənləşmə 44 günlük müharibədən sonra Azərbaycanın irəli sürdüyü şərtlərin birmənalı qəbuludur.

Onu da bildirim ki, cənab Əliyevin ədalətli sülh yolundakı prinsipiallığını və qətiyyətini vurğulayarkən, xüsusən, ötən beş ilin siyasi yaşantılarını xatırlamaq şərtdir. Müharibə məğlubu Ermənistanın vəziyyəti dəyişmək üçün hər şeyə əl atması, ölkənin çeşidli manipulyasiyaları, Qarabağ avantürizmini qorumaq cəhdləri – bütün bunları gördük. Ona görə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Vaşinqtondan etdiyi sosial şəbəkə paylaşımında çox doğru vurğulayır ki, “Prezident İlham Əliyev müharibədə qalib gəldiyi kimi, sülhü də qazandı!!!”

Sonda onu da bildirək ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin sülh qazancı nəinki xalqımızın, bütövlükdə Cənubi Qafqaz xalqlarının böyük nemətidir. Bu qazancda Ermənistanla münasibətlərin normallaşması aspekti kimi, əvvəldə haqqında söz açdığımız Amerika-Azərbaycan münasibətlərində yeni əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsinin açılması mühüm əhəmiyyətə malikdir. Əminik ki, hadisələrin sonrakı axarı da gözləntilərimizi doğruldacaq və Cənubi Qafqaz regionu haqqı olan əbədi sabitliyə, asayişə, yeni inkişaf və tərəqqi yoluna çıxacaqdır. Yolumuz açıq olsun!

***Əflatun AMAŞOV,***
***Baş redaktor***

# Vətənə Zəfər qazandıran lider Qafqaza sülh gətirdi

**Azərbaycan Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqton görüşü tarixi əhəmiyyət daşıyır. Bu görüş və imzalanan birgə bəyannamə regionun gələcəyi üçün mühüm dönüş nöqtəsi olacaq. Birgə Bəyannamə uzun illər davam edən münaqişədən sonra Azərbaycan və Ermənistan arasında real sülhün təmin olunması istiqamətində atılmış ən ciddi addım kimi tarixə düşəcək və bu, Prezident İlham Əliyevin prosesdəki liderliyi, strateji baxışı və siyasi uzaqgörənliyinun nəticəsidir. Çünki məhz Azərbaycan rəhbərinin qlobal arenada yürütdüyü düzgün hesablanmış və milli maraqlara söykənən siyasəti ABŞ kimi supergücün bölgəyə ədalətli baxışında müstəsna rol oynayıb.**



2024-cü ilin 5 noyabrında ABŞ-da keçirilən prezident seçkilərindən 3 ay öncə Şuşada keçirilən Qlobal Media Forumunda ABŞ-dakı seçkilərlə bağlı jurnalistin sualını cavablandırarkən Prezident İlham Əliyev böyük uzaqgörənlik və cəsarət nümayiş etdirərək o zaman prezidentliyə namizəd olan Donald Tramp haqqında müsbət fikirlər söyləyərək dövlət başçısı kimi onun namizədliyinin bölgə və dünya üçün daha sülhpərvər olduğunu bildirmişdi. Bunun ardınca isə Donald Trampın yenidən hakimiyyətə gəlməsi ABŞ və Azərbaycan arasındakı münasibətlərdə yeni səhifə açdı. Trampın Azərbaycan Prezidentinin fikirlərini öz səhifəsində paylaşması iki lider arasında münasibətlərin yüksək səviyyədə olmasının göstəricisi idi. Elə Ağ Evdə qarşılanma və ikitərəfli danışıqlar zamanı Prezident İlham Əliyevin hər bir azərbaycanlının qürurla seyr etdiyi özgüvənli və qətiyyətli diplomatik davranışları da bunun göstəricisi idi. Bu baxımdan Azərbaycan liderinin ABŞ səfərinin uğurunu şərtləndirən faktlardan biri ədalətsiz 907-ci düzəlişin ləğvi və Azərbaycan–ABŞ münasibətlərində yeni dövrün əsasının qoyulmasıdır. 33 illik tarixə malik bu qərəzli sənədin tətbiqinin tam şəkildə dayandırılması Azərbaycan Prezidentinin növbəti siyasi qələbəsidir. Prezidentin Vaşinqtona səfərinin nəticələri əminliklə deməyə əsas verir ki, dövlətimizin qarşısında dayanan bir neçə strateji vəzifə öz həllini tapdı. Bu, bir daha Azərbaycan Prezidentinin güclü liderliyini, dövlətimizin beynəlxalq nüfuzunu təsdiq edir.

Eyni zamanda, bütün dünyanın diqqətində olan Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair imzalanmış Birgə Bəyannamə Cənubi Qafqazın tarixində yeni səhifə açır. Bu bəyannamə tam şəkildə Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş haqlarının ən yüksək səviyyədə və ən qarantlı şəkildə rəsmi təsdiqi idi.

Sənəddə xüsusi olaraq vurğulanmalı bir məsələ ATƏT-in Minsk qrupunun fəaliyyətinə rəsmi şəkildə son qoyulmasıdır. Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən imzalanmış birgə müraciətlə Minsk qrupunun və ona bağlı bütün strukturların ləğvi təşəbbüsünə rəsmi start verilməsi, uzun illər ərzində heç bir nəticə verməyən, fəaliyyətsiz və artıq real vəziyyətə uyğun gəlməyən bu formatın tarixə qovuşduğunu göstərir. Prezident İlham Əliyev bu məsələ ilə bağlı illərdir ardıcıl və prinsipial mövqe nümayiş etdirərək bildirmişdi ki, Minsk qrupu artıq öz funksiyasını itirib və onun dirildilməsinə cəhdlər mənasızdır. Dövlət başçımızın dəfələrlə vurğuladığı kimi, münaqişə artıq həll olunub, Qarabağ problemi bağlanıb və Azərbaycan öz torpaqlarını özü azad edib. Belə olan halda, heç bir əsas qalmırdı ki, bu struktur formal olaraq belə saxlanılsın. Vaşinqtonda baş verən bu diplomatik qərar, cənab Prezident İlham Əliyevin siyasi iradəsinin və Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan çəkisinin növbəti sübutudur.

Sənəddə yer alan kommunikasiyaların açılması ilə bağlı müddəalar Azərbaycan və Ermənistan arasında təkcə fiziki deyil, həm də siyasi və iqtisadi körpülərin qurulmasına xidmət edir. Azərbaycan ilə Naxçıvan arasında birbaşa, maneəsiz əlaqənin təmin olunması ölkəmizin milli maraqları baxımından xüsusi əhəmiyyət daşıyır. Paralel olaraq, Ermənistanın da bu prosesdən faydalanması nəzərdə tutulur ki, bu da sülh təşəbbüsünün qarşılıqlı faydaya əsaslandığını göstərir.

Ən önəmlisi isə budur ki, Prezident İlham Əliyevin illər əvvəl Zəngəzur dəhlizi ilə bağlı verdiyi vəd artıq reallaşma mərhələsinə qədəm qoyub. Zəfərdən sonra Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Cənab Prezident Zəngəzur dəhlizinin reallaşacağını və bunun sadəcə zaman məsələsi olmasını bəyan etmişdir. Azərbaycan Prezidentinin uzaqgörən siyasəti sayəsində imzalanmış Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olunur. Bu, Zəngəzur dəhlizinin reallaşması deməkdir. Vaşinqtonda həmçinin Zəngəzur Dəhlizinin işə düşməsi ilə əlaqədar ABŞ ilə Ermənistan arasında saziş imzalanıb. Bu isə o deməkdir ki, Prezident D.Tramp Zəngəzur dəhlizinin qarantı rolunu oynayacaq.

Sazişin paraflanması onun imzalanması istiqamətində əhəmiyyətli addımdır. Prezident İlham Əliyevin görüşdən sonra verdiyi müsahibəsində bildirdiyi kimi, Ermənistanın yerinə yetirməli ev tapşırıqları hələ qalmaqdadır. Söhbət sülh sazişinin imzalanması üçün Azərbaycanın digər şərtinin yerinə yetirilməsi - Ermənistanın konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasından gedir. Qeyd edək ki, Birgə Bəyannamədə sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməli olması barədə müddəa məhz Ermənistanın konstitusiya dəyişikliyinə aiddir. Sənəddə yekun sülh sazişinin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstə, Azərbaycan tərəfi Sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir. Ermənistanın uzun müddətdir ki, müxtəlif bəhanələrlə yayınmağa çalışdığı sülhün əldə olunmasıdır. Vətən müharibəsindən sonra Azərbaycan sülh gündəliyini təklif etmiş və bununla bağlı beş prinsip müəyyənləşdirmişdi. Ermənistan isə prosesi mümkün qədər ləngitməyə çalışırdı. Lakin məhz Azərbaycan Prezidentinin müdrik siyasəti, çevik, praqmatik diplomatiyası nəticəni müəyyən edən əsas amil oldu. 5 il öncə Vətən müharibəsində Azərbaycan qalib gəlmişdi. Ancaq bu son deyildi. Çünki qanla qazandığı nailiyyətləri diplomatiya masasında itirən dövlətlərə tarix boyu, elə günümüzdə də çox rast gəlinib. Azərbaycan isə savaş meydanında qazandığı zəfəri diplomatiya masasında əldə etdiyi nailiyyətlərlə tamamlamağı bacardı. Bütün bunlar isə Prezident İlham Əliyevin uğurlu siyasətinin məntiqi nəticələrdir. Məhz İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi tarixi Zəfərimizin, böyük diplomat kimi isə tam qələbəmizin müəllifi oldu. Müharibədə qalib gəlmiş Komandan, ölkəmiz və bütün Qafqaz üçün sülhü də qazandı…

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

# Dünya liderlərin Vaşinqton görüşünü alqışlayır



**Avqustun 8-də ABŞ Prezidentinin Ağ Evdə Azərbaycan və Ermənistan liderlərini bir araya gətirməsi, illərdir davam edən münaqişənin aradan qaldırılması istiqamətində atılan ən cəsarətli və həlledici addım kimi qiymətləndirilir. Beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən bu görüş, sülh, sabitlik və əməkdaşlıq üçün yeni bir ümid işığı yandırır. Bu tarixi hadisə təkcə regionun deyil, həm də Avrasiyanın geosiyasi mənzərəsini kökündən dəyişdirmə potensialına malikdir.**

## Türkiyə

**Türkiyə ABŞ-da Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunan irəliləyişi xüsusi hadisə kimi qiymətləndirir. Bu barədə Türkiyənin Xarici İşlər Nazirliyi bəyanat yayıb. Bəyanatda Vaşinqton görüşünün regionda davamlı sülh və sabitlik üçün vacib əhəmiyyət kəsb etdiyi qeyd olunur:**

"Biz Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olması istiqamətində əldə olunan irəliləyişdən və bununla bağlı bu gün (8 avqust) Vaşinqtonda qəbul edilmiş öhdəlikdən məmnunuq. Beynəlxalq qarşıdurmaların və böhranların getdikcə şiddətləndiyi bir vaxtda atılan bu addım regional sülh və sabitliyin əldə olunması üçün mühüm inkişafdır. Biz ABŞ Administrasiyasının bu prosesə töhfələrini yüksək qiymətləndiririk. Biz Türkiyə olaraq bu fürsəti reallaşdırmaq üçün göstərilən səylərə öz töhfəmizi verməyə davam edəcəyik və Azərbaycanın fədakar səylərini dəstəkləyəcəyik".

## Pakistan

**"Pakistan Ağ Evdə ABŞ Prezidenti Donald Trampın himayəsi altında keçirilən sammitdə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında imzalanmış tarixi sülh sazişini alqışlayır". Bunu Pakistanın Baş naziri Şahbaz Şərif "X" hesabında yazıb.**

O vurğulayıb ki, bu mühüm hadisə onilliklər boyu münaqişə və insan əzabları yaşamış Cənubi Qafqaz regionunda sülh, sabitlik və əməkdaşlığın yeni dövrünün başlanğıcını qeyd edir.

"Biz Prezident İlham Əliyevi və Azərbaycan xalqını regionları üçün sülh dolu gələcək yolunu müəyyən edən müdriklik və uzaqgörənliyi əks etdirən bu tarixi saziş münasibətilə təbrik edirik. Pakistan həmişə qardaş Azərbaycan millətinin yanında olub və biz onların tarixinin bu qürurlu anında da onlarla birgəyik.

Biz, həmçinin iki tərəfi bir araya gətirən və ticarət, əlaqə və regional inteqrasiya üçün yeni imkanlar açan sazişin əldə olunmasında Prezident Donald Trump rəhbərliyi altında Amerika Birləşmiş Ştatlarının vasitəçilik rolunu qiymətləndiririk. Ümid edirik ki, bu dialoq ruhu uzunmüddətli münaqişələrlə üzləşən digər regionlar üçün nümunə olacaq", - baş nazir yazıb.

## Avropa İttifaqı

**Avropa İttifaq (Aİ) Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanmasını alqışlayır. Bu barədə Avropa İttifaqı Şurasının sədri Antonio Kosta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen birgə bəyanatında deyilir.**

Vurğulanır ki, bu sənədin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalaması həm Ermənistan, həm də Azərbaycan üçün mühüm hadisədir. Qeyd olunur ki, hər iki ölkə və bütün region üçün möhkəm, davamlı sülhə zəmin yaradır.

## Fransa

**Fransa Xarici İşlər Nazirliyi (XİN) avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında iki ölkənin münasibətlərinin normallaşdırılmasına dair razılaşma əldə olunmasına dair bəyanat yayıb. Kommünikedə Fransa bu addımı yüksək qiymətləndirib.**

Bəyanatda ABŞ-a bu prosesdə oynadığı rola və əldə olunan nəticələrə görə təşəkkür edilib. Bəyanatda qeyd olunur ki, sülh müqaviləsinin tezliklə imzalanması və ratifikasiyası bölgədə sabitliyin təmin olunmasında həlledici rol oynayacaq. Fransa tərəfi, həmçinin, ATƏT-in Minsk qrupunun strukturlarının buraxılması ilə bağlı tərəflərin birgə çağırışını dəstəklədiyini bildirib.

## İtaliya

**İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşə dair imzaladığı Birgə Bəyannaməni alqışlayır. Bu barədə nazirliyin "X" sosial şəbəkəsindəki paylaşımında bildirib.**

"ABŞ-ın vasitəçiliyi sayəsində Azərbaycan ilə Ermənistan arasında tarixi razılaşmanı suverenlik və ərazi bütövlüyünə əsaslanan normallaşmaya doğru bir addım kimi alqışlayırıq. Bu, regionda sülh, sabitlik və inkişaf üçün fürsətdir", - deyə paylaşımda qeyd olunur.

## Gürcüstan

**Gürcüstan Xarici İşlər Nazirliyi (XİN) Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan dövlətinin başçısı İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar olması haqqında" tarixi razılaşmanı alqışlayır. Bu barədə Gürcüstan XİN-nin yaydığı bəyanatda deyilir.**

Bildirilir ki, bu tarixi saziş Cənubi Qafqaz regionunda davamlı sülhün bərqərar olması istiqamətində mühüm addımdır və regionun uzunmüddətli və sabit inkişafı üçün yeni imkanlara yol açır.

Gürcüstan Cənubi Qafqazda sülhün möhkəmləndirilməsinə, regionunun sabitliyinə və rifahına yönələcək əməkdaşlığın gücləndirilməsini qətiyyətlə dəstəkləyir.

## Qazaxıstan

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hesab edir ki, Azərbaycan ilə Ermənistan arasında Vaşinqtonda əldə olunan razılaşma mühüm tarixi nailiyyətdir. Bu fikri Qazaxıstan Prezidentinin mətbuat katibi Ruslan Jeldibay jurnalistlərə müsahibəsində deyib.**

Qazaxıstanın dövlət başçısı qeyd edib ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən mühüm görüş iki dövlət arasında uzunmüddətli hərbi münaqişəyə son qoyub, diplomatik münasibətlərin qurulmasına və davamlı sülhə əsaslanan əməkdaşlığın inkişafına yol açıb.

## NATO

**NATO Azərbaycan və Ermənistanın sülh istiqamətində əldə etdiyi irəliləyişi alqışlayır.**

Bu barədə NATO mətbuat katibi Allison Hart sosial şəbəkə hesabında bəyanat verib.

"Biz Ermənistan və Azərbaycan arasında sülhə doğru irəliləyişdən məmnunuq. Prezident Trampa sülh üçün çalışdığına görə təşəkkür edirik. Bu regional təhlükəsizlik və normallaşma prosesi üçün mühüm bir addımdır. NATO tərəfdaşları olan Azərbaycan və Ermənistanla işləməyə davam edəcək"- bəyanatda qeyd edilib.

## Çexiya

**Çexiya Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan tərəfindən sülh müqaviləsinin paraflanmasını dəstəkləyib. Bu barədə qurumun "X" səhifəsində yazılıb.**

"Biz hər iki tərəfin sülhə nail olmaq səylərini, eləcə də ABŞ Prezidenti Donald Trampın səylərini yüksək qiymətləndiririk. Ümid edirik ki, bu addım Cənubi Qafqazda gələcək əməkdaşlığa və firavanlığa yol açacaq", - paylaşımda deyilir.

Qeyd edək ki, Azərbaycan və Ermənistan XİN rəhbərləri avqustun 8-də Vaşinqtonda "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" sazişi paraflayıblar.

## İspaniya

**İspaniya Azərbaycan və Ermənistan arasında imzalanmış sazişlərin hər iki ölkənin və bütövlükdə regionun rifahı naminə əməkdaşlığın, qarşılıqlı anlaşmanın və inkişafın yeni mərhələsini açacağına ümid edir. Bu barədə İspaniya Xarici İşlər Nazirliyinin rəsmi bəyanatında deyilir.**

"İspaniya Prezident Əliyev və Baş nazir Paşinyan arasında ABŞ-ın iştirakı ilə Ağ Evdə əldə olunmuş razılaşmaları alqışlayır və hesab edir ki, bu, onilliklər ərzində davam edən münaqişədən sonra Ermənistan və Azərbaycan arasında yekun sülh əldə edilməsi və münasibətlərin tam normallaşması istiqamətində həlledici addım olacaq", – bəyanatda qeyd olunub.

Vurğulanır ki, İspaniya Cənubi Qafqazda sülh və sabitliyin olmasına sadiqdir.

***XQ***

# Cənubi Qafqazda sülh dövrü başlayır

**ABŞ Azərbaycan və Ermənistan arasında tarixi sülh sazişini qeyd edir.**



Bunu xüsusi qeyd edən ABŞ Dövlət katibi Marko Rubio daha sonra deyir:

"Prezident Tramp tərəfləri bir araya gətirdi və onilliklərdir davam edən qarşıdurmaya son qoyan razılaşmaya vasitəçilik etdi. Bu, hər iki ölkə üçün irəliləyiş və diqqəti Cənubi Qafqaz regionunun iqtisadi potensialının açılmasına yönəltmək üçün bir fürsətdir. Bu da Amerika xalqına, həm də Azərbaycan və Ermənistan üçün ticarət sövdələşmələri və rifah gətirəcək. Biz hər iki ölkəni yeni sülh dövrü münasibətilə təbrik edirik"..

***XQ***

# Qürurun zirvə günü



**ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Ağ Evdə keçirilən bu tarixi görüş Azərbaycanın tərcümeyi-halında ən mühüm, ən şərəfli səhifələrdən biridir. Zəfər və əzmimizin siyasət meydanında qürurla taclandırılan zirvə məqamıdır. Vaşinqtonun bu iki Cənubi Qafqaz ölkəsi arasında uzunmüddətli və davamlı sülhə nail olunması üçün göstərdiyi təşəbbüslər Tramp administrasiyasının hakimiyyətə gəlişiylə başlamışdı. Ağ Evdə baş tutan bu üçtərəfli görüş Prezident Trampın Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması istiqamətində birbaşa və ilk iştirakı ilə oldu.**

Görüşdə əsas məqsəd Azərbaycan və Ermənistan arasında sülh sazişinin prinsiplərini müəyyən edən birgə bəyannamənin imzalanması və Vaşinqtonun dəstəyi ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi idi. Bu görüş əlbəttə ki, Azərbaycan–ABŞ strateji münasibətlərində, həm də Azərbaycan–Ermənistan sülh prosesində yeni bir mərhələnin başlanğıcına çevrildi. Xüsusilə, Azərbaycan və ABŞ liderlərinin regional əlaqəlilik, qabaqcıl texnologiyalara və süni intellektə iqtisadi investisiyalar, enerji, ticarət və təhlükəsizlik sahələrində əməkdaşlığı dərinləşdirmək məqsədilə Strateji Tərəfdaşlığın yaradılması üzrə Anlaşma Memorandumu imzalaması irəli doğru inkişaf üçün çox mühüm addım sayılmalıdır. ABŞ-ın Azərbaycana yardımına uzun illər mane olan Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin tətbiqinin dayandırılması barədə qərarı ölkə başçımıza, Azərbaycan xalqına qarşı ən qiymətli, ən mühüm jestlərdən biridir.

Prezident Trampın iştirakı ilə Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın imzaladığı Birgə Bəyannamə dünya tarixinin ən nadir hadisələrindəndir. Arxada 30 ildən artıq işğal dönəmi, müharibə ağrıları, tökülən qanlar, axıdılan göz yaşları. Nəhayət, bunların sonuclanma mərhələsindəyik. Şəhid oğullarımızın ruhu şad olsun!

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında bildirirdi ki, əsas prinsiplər razılaşdırılıb paraflandıqdan sonra tam sülh müqaviləsi üzərində işə başlamaq mümkündür. Vaşinqtonda imzalanacaq birgə bəyanat bu baxımdan mühüm strateji və geriyə yol qoymayan bir addımı ifadə eləyir. Bu bəyannamə həm də Cənubi Qafqaz xalqlarının həyatında ən yeni mərhələnin başlanğıcı oldu.

Sülh gündəmindəki ən çətin məsələlərdən biri Zəngəzur dəhlizi adlandırılan Naxçıvana quru bağlantı mövzusu idi. Azərbaycan illərdir tələb edir ki, Azərbaycanla Naxçıvan arasında Zəngəzur bölgəsindən keçən yol "maneəsiz" olmalı, yəni Ermənistanın heç bir sərhəd və gömrük nəzarəti tətbiq etməməsi təmin edilməlidir. Dünənki tarixi görüş, Azərbaycan ilə Naxçıvan arasında maneəsiz quru əlaqəsini təmin edərək Zəngəzur dəhlizinin reallaşmasını nəzərdə tutur.

Minsk qrupu uzun illər Qarabağ münaqişəsinin vasitəçisi olsa da, zəfərimizi qazandığımız 2020-ci ildən sonra artıq gərəksiz və faydasız olduğu göz önündə idi. Nəhayət, ATƏT-in Minsk qrupunun ləğvi üçün birgə məktub ünvanlandı. Həmçinin 2026-cı ildə keçiriləcək referendumla Ermənistan Konstitusiyasına dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının çıxarılması baş verəcək. Bununla da, tərəflərin sülh müqaviləsini imzalamasına heç bir maneə qalmayacaq.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən sülh sazişinin mətninin paraflanması, mətnin özünün artıq tam razılaşdırıldığını təsdiqləyir. Paraflama müqaviləni imzalama ilə eyni olmasa da, sülhə doğru atılmış mühüm addımdır. Azərbaycan və Ermənistan indi yekun və dayanıqlı sülhün bir addımlığındadır.

Bütün bunlar Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin illərdən bəri apardığı dürüst, ləyaqətli, uzaqgörən siyasətinin şərəfli yekunudur. İlham Əliyev bəşər tarixinin sülhə, harmoniyaya xidmət edən unikal liderlərindən oldu. Xalqına zəfərlə bərabər beynəlxalq miqyasda sözün çəkisi necə olur, - bunun qürurunu yaşatdı. Sülh istəyi və insanlıq ləyaqətini bir araya cəm edib öz liderlik tərcümeyi-halının əsas xəttinə çevirməyi bacaran Azərbaycanın gücü – İlham Əliyev bu əzmlə ən uzaq tarixləri yaxına gətirdi, ən əlçatmaz arzuları reallığa çevirməyi bacardı. Və bu yaxınlaşan uzaqlıqlardan artıq açılacaq Zəngəzur dəhlizinin üfüqləri görünür.

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

# Ağ Evin diplomatiya mesajı

## *ABŞ Cənubi Qafqazda sülh missiyasını inamla gerçəkləşdirir*

**Son illər Cənubi Qafqazın sarsıntılarla dolu geosiyasi mənzərəsində Vaşinqton görüşü ümid işığı oldu. ABŞ-ın aktiv vasitəçiliyi, Donald Tramp və İlham Əliyev arasında qurulan pozitiv dialoq, Nikol Paşinyanın dəyişən sülh siyasəti – bütün bunlar regionda dayanıqlı sülhün qurulması yolunda əhəmiyyətli addımlar kimi görünür.**

Cənubi Qafqaz bölgəsi uzun illərdir ki, qlobal güc mərkəzlərinin maraqları arasında sıxışmış, münaqişələr və qarşıdurmaların dayandığı mürəkkəb geosiyasi meydan olmuşdur. Ermənistan və Azərbaycan arasında davam edən münaqişə isə bu regional sarsıntıların ən ağrılı nümunəsidir.

Ancaq 2025-ci ilin avqustunda Vaşinqtonda baş tutan üçtərəfli görüş yeni dövrün başlanğıcını qoydu. ABŞ-ın fəal vasitəçilik rolunu üstlənərək təşəbbüs göstərməsi, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında konstruktiv dialoqun qurulması regionda sülhə ümidlərin canlanmasına səbəb oldu.



Donald Tramp Administrasiyasının regiona baxışında dəyişikliklər bu prosesin əsas katalizatorlarından oldu. ABŞ uzun illərdən sonra Cənubi Qafqazda daha aktiv, daha məsuliyyətli və sülh yönümlü siyasət yürütməyə başladı. Tramp və Əliyev arasında yaranan pozitiv münasibətlər Vaşinqton görüşündə özünü açıq şəkildə göstərdi.

Nikol Paşinyanın mövqeyindəki dəyişikliklər də diqqətəlayiqdir. Paşinyan artıq sülhün və diplomatik həllin tərəfdarı kimi çıxış edir, ABŞ-ın təşəbbüslərinə dəstək verir və münaqişənin güc yolu ilə deyil, danışıqlar yolu ilə həllinə tərəfdar olduğunu isbatlayır. Mövcud dəyişiklik isə Ermənistanın həm daxili siyasətində, həm də xarici münasibətlərində yeni bir dövrün əlamətidir.

Vaşinqton görüşünün nəticəsi olaraq ATƏT-in Minsk qrupunun fəaliyyəti faktiki olaraq dayandırılır və onun yerini ABŞ-ın liderliyində yeni sülh mexanizmi tutur.

Rusiya və İran kimi regional güclərin təsirinin zəifləməsi isə ABŞ-ın regionda sülh təşəbbüslərini daha effektiv həyata keçirməsi üçün əlverişli şərait yaradır. Bəs bütün bu dəyişikliklər Cənubi Qafqazın gələcəyinə nə vəd edir? Vaşinqton görüşü sülhün möhkəmlənməsi üçün real fürsət yaradacaqmı? Diplomatik münasibətlərin bərpası iqtisadi əməkdaşlıq və regional inteqrasiya nə qədər davamlı olacaq?

*

Vaşinqton görüşü ABŞ-ın Cənubi Qafqazda uzun müddətdir mövcud olan status-kvonu dəyişmək istədiyinin ən aydın göstəricisidir. Ənənəvi olaraq bölgədə Rusiya və İranın dominant təsiri ilə üzləşən ABŞ bu dəfə fərqli bir strategiya ilə çıxış edir: aktiv diplomatiya, konkret təkliflər və hər iki tərəflə açıq dialoq.



Donald Trump Administrasiyası ilə başlayaraq ABŞ-ın region siyasətində bir növ canlanma müşahidə olunur. Tramp və Əliyev arasındakı müsbət münasibətlər yalnız şəxsi səviyyədə qalmayıb iki ölkə arasında ticarət, təhlükəsizlik və strateji əməkdaşlıq sahələrində konkret addımların atılmasına təkan verir. Yeni yanaşma ABŞ-ın regionda vasitəçilik rolunu yalnız formal xarakter daşıyan Minsk qrupundan kənara çıxararaq, daha geniş və aktiv siyasət yürütməsinə şərait yaradır. ABŞ, Rusiya və İranın regionda təsirinin azaldığı bir zamanda özünün vasitəçi və liderlik funksiyalarını gücləndirir, həmçinin Azərbaycan və Ermənistan liderləri ilə birbaşa dialoqu prioritetə çevirir.

Nikol Paşinyanın sülhə münasibətindəki dönüş isə ABŞ-ın bu prosesdəki rolu ilə sıx əlaqəlidir. Paşinyan əvvəllər daha sərt, konfliktə meyilli mövqedə olsa da, hələ Vaşinqton görüşünə qədər sülh danışıqlarına daha açıq və konstruktiv yanaşmağa başladı. ABŞ-ın təşəbbüsləri Paşinyanın regionda izolyasiyadan çıxaraq iqtisadi və siyasi inteqrasiya yolunu seçməsində həlledici rol oynadı. Bütün bu addımlar isə təkcə Ermənistan üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün yeni inkişaf üfüqlərinin açılması deməkdir.

Aydın görünür ki, ABŞ regionda yalnız güc balansını dəyişmək yox, həm də davamlı sülhün bərqərar olması üçün şərait yaratmağa çalışır.

1992-ci ildə "Azadlığa dəstək Aktı"na qəbul edilən 907-ci düzəliş isə ABŞ-ın postsovet ölkələrinə yardımı nəzərdə tutan proqramı çərçivəsində yalnız Azərbaycana qarşı tətbiq edilən yeganə sanksiya idi. Səbəb kimi Qarabağ münaqişəsində Azərbaycanın "Ermənistana qarşı blokadası" göstərilsə də, faktiki olaraq, bu qərar Vaşinqtonun regiondakı siyasətində balanssızlıq yaradırdı. İllər ərzində bu məhdudiyyət müəyyən hallarda prezident fərmanları ilə müvəqqəti dayandırılsa da, hüquqi qüvvəsini qoruyurdu. İndi isə 907-ci düzəlişin Vaşinqton görüşündə ləğvi ABŞ-ın Azərbaycana qarşı illərlə davam edən diskriminasiya elementini aradan qaldırmaqla yanaşı, hərbi-texniki əməkdaşlıq, enerji təhlükəsizliyi və regional layihələrdə birgə fəaliyyət üçün yeni imkanlar açır. Elə bu addım da Vaşinqtonun Cənubi Qafqazda "köhnə oyun qaydaları"ndan imtina edərək, daha real və bərabərhüquqlu tərəfdaşlıq modelinə keçdiyinin siqnalıdır.

ATƏT-in Minsk qrupunun yenidən qurulması və ya faktiki ləğvi də bu istiqamətdə atılmış addımlardan biridir. Qurumun illərlə davam edən danışıqları dondurması əvəzində ABŞ-ın liderliyində formalaşan yeni sülh mexanizmi tərəflər arasında etimadın və əməkdaşlığın artırılması üçün daha çevik və praktik vasitələr təqdim edir. Minsk qrupu uzun illər boyunca Qarabağ münaqişəsinin həllində əsas vasitəçi kimi tanınsa da, son illərdə fəaliyyətinin effektivliyini itirmişdi. Görüşlər çox vaxt formal xarakter daşıyır, ciddi irəliləyiş isə müşahidə olunmurdu. Vaşinqton görüşü ilə Minsk qrupunun bu funksiyasının faktiki olaraq sona çatması yeni sülh mexanizminin yaranmasının təməlini qoydu.

ABŞ-ın təşəbbüsü ilə formalaşan bu yeni mexanizm daha çevik, sürətli və real nəticəyə yönəlikdir. Artıq region ölkələri ABŞ-ın vasitəçiliyi ilə birbaşa danışıqlar aparır, sülh müqaviləsinin əsas prinsipləri üzərində anlaşmağa çalışırlar.

Minsk qrupunun funksiyalarının azalması ilə regionda Rusiya və İranın rolu da əhəmiyyətli dərəcədə zəifləyib. Onların Cənubi Qafqazda ənənəvi təsir dairəsi ABŞ-ın aktiv siyasəti nəticəsində daralır. Bu, regionda güc balansının dəyişməsi deməkdir. Rəsmi Vaşinqtonun sülhə önəm verməsi və regionda etimad yaratmağa çalışması Rusiya və İranın passivləşməsinə gətirib çıxarır.

Rusiya uzun illər Ermənistanın əsas müttəfiqi olsa da, Vaşinqton görüşündən sonra bu əlaqələrdə müəyyən məsafə yaranır. Ermənistanın ABŞ-ın sülh təşəbbüslərinə müsbət reaksiya verməsi Moskvanın regiondakı mövqeyinin zəiflədiyini göstərir. İran da öz növbəsində Cənubi Qafqazın siyasi gündəmində daha zəif iştirak edir və sadəcə, ABŞ-ın diplomatik təşəbbüslərini izləyir.

Vaşinqton görüşünün ən mühüm nəticələrindən biri Ermənistan və Azərbaycan arasında diplomatik münasibətlərin bərpasıdır. Diplomatik münasibətlərin bərpası, qarşılıqlı etimadın yaranmasına, sərhədlərin açılmasına, ticarət və iqtisadi əlaqələrin inkişafına zəmin yaradır. İqtisadi inteqrasiya Cənubi Qafqazda sülhün dayanıqlı olması üçün əsas şərtdir. Həmçinin diplomatik əlaqələrin qurulması humanitar məsələlərdə əməkdaşlığın güclənməsinə də yol açır. Qaçqınların geri qayıdışı, minalardan təmizləmə, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq regionda uzunmüddətli sülhün təməl daşlarını qoyur. Bu baxımdan, Vaşinqton görüşü Cənubi Qafqazda yeni sülh və əməkdaşlıq dövrünün başlanğıcı kimi qiymətləndirilməlidir.

Vaşinqton görüşü ilə başlayan yeni mərhələ Cənubi Qafqazın uzun müddət donmuş münaqişəsinin həlli üçün əsl fürsət yaradır. ABŞ-ın regionda güclü və konstruktiv vasitəçi rolu, Azərbaycan və Ermənistan liderləri arasında dialoqun sürətləndirilməsi sülh prosesinin gələcəyinə dair optimizmi artırır.

Lakin burada əsas sual qalır: bu yeni sülh təşəbbüsləri nə qədər davamlı və dayanıqlı ola bilər? Regionda mürəkkəb etnik, siyasi və tarixi zəmində formalaşan qarşıdurmalar ABŞ-ın vasitəçiliyi ilə həqiqətən də tam həll oluna bilərmi?

Tarixi təcrübə göstərir ki, münaqişələr təkcə liderlərin mövqelərinin dəyişməsi ilə deyil, həm də dərin ictimai-siyasi dəyişikliklərlə həll olunur. Prezidentlərin yaxınlaşması mühüm siyasi siqnaldır, lakin sülhün dayanıqlı olması üçün xalqlar arasında diplomatiya – yəni mədəni, humanitar və sosial səviyyədə qarşılıqlı anlaşma – həlledici rol oynayır. Vaşinqton görüşü bu baxımdan irəliyə doğru ilk böyük addımdır, amma prosesin uğurlu olması üçün daha geniş sosial dəstək və qarşılıqlı etimadın yaranması zəruridir. Xalqların diplomatiyası stereotiplərin və düşmən obrazının aradan qaldırılması, təhsil, mədəniyyət və iqtisadi sahələrdə birgə layihələrin təşkili ilə güclənə bilər. Əgər bu paralel proses prezidentlər arasındakı siyasi dialoqu tamamlayarsa, o zaman Vaşinqton görüşü təkcə kağız üzərində qalan diplomatik razılaşma deyil, real sosial barışın başlanğıcı ola bilər.

Cavab isə zamanla veriləcək, amma indidən aydındır ki, Cənubi Qafqazın sabahı üçün yeni ümidlər doğur və ABŞ-ın bu missiyasının uğuru regionun gələcək inkişafında həlledici rol oynayacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan – ABŞ strateji tərəfdaşlığı regional və qlobal önəm daşıyır

## *300-dən çox Amerika şirkəti ölkəmizə 16 milyard dollar sərmayə yatırıb*

**Azərbaycan ilə Amerika Birləşmiş Ştatları (ABŞ) arasında münasibətlər regional və qlobal miqyasda mühüm önəm daşıyan strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hər iki ölkənin iqtisadi əməkdaşlığında enerji təhlükəsizliyindən süni intellekt texnologiyalarına, müdafiə sənayesindən ticarət dövriyyəsinə qədər bir sıra prioritet sahələr əhatə olunub.**

Son illərdə bu dövlətlər arasında iqtisadi əlaqələrin dinamik inkişaf etdirilməsi, yüksək texnologiyaların alınması, yeni enerji layihələrinin gerçəkləşdirilməsi və müdafiə sahəsində tərəfdaşlığın möhkəmlənməsi münasibətlərin daha da dərinləşdiyini göstərir. Hazırda respublikamızda fəaliyyət göstərən 300-dən çox ABŞ şirkətinin ümumi sərmayə həcmi 16 milyard dolları keçir.

Qeyd edək ki, Azərbaycan və ABŞ ticarət əməkdaşlığında bir sıra məqamlar diqqət çəkir. Bu, özünü, ilk növbədə, iqtisadi əlaqələrdə son illərdə nəzərə çarpan canlanma ilə büruzə verir. Məsələn, Dövlət Gömrük Komitəsinin 2024-cü ilin yekunlarına dair hesabatına əsasən, iki ölkə arasında ticarət dövriyyəsi 1,4 milyard dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə, təxminən, 12 faiz artım deməkdir.

ABŞ şirkətləri Azərbaycan iqtisadiyyatına yatırımlarını təkcə enerji sektorunda deyil, eyni zamanda, kənd təsərrüfatı, logistika, informasiya texnologiyaları və xidmət sahələrində də artırır. 2023–2024-cü illərdə "Boeing", "Microsoft" və "Amazon Web Services" kimi nəhəng şirkətlərin Azərbaycan tərəfi ilə əməkdaşlığı sahəsində yeni müqavilələr imzalaması da bunun bariz ifadəsidir. Prezident İlham Əliyev bu barədə çıxışlarının birində vurğulayıb: "Azərbaycan və ABŞ arasındakı iqtisadi əməkdaşlıq artıq yeni strateji mərhələyə qədəm qoyub. Biz qarşılıqlı sərmayələrə üstünlük verir, texnologiya transferini prioritet hesab edirik."

Hər iki dövlət arasında süni intellekt və rəqəmsal infrastruktur əməkdaşlığı da xüsusi yer tutur. Belə ki, rəqəmsal transformasiya dövründə süni intellekt, bulud texnologiyaları və kibertəhlükəsizlik sahələri tərəflərin maraq dairəsindədir. Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə ABŞ-ın qabaqcıl texnologiya şirkətləri bu istiqamətdə ortaq layihələr reallaşdırır. ABŞ-ın "IBM" və "Cisco" şirkətləri respublikamızın "ağıllı" şəhər və "ağıllı" kənd layihələrində fəal iştirak edir. Bu layihələr çərçivəsində 5G şəbəkə infrastrukturunun qurulması, rəqəmsal idarəetmə mərkəzlərinin yaradılması və əhalinin rəqəmsal bacarıqlarının artırılması kimi istiqamətlər prioritetdir. Yeri gəlmişkən, ABŞ Ticarət Nazirliyinin 2024-cü ildə Azərbaycanda süni intellekt üzrə ixtisaslaşmış startaplara 50 milyon dollarlıq qrant və sərmayə paketi ayıracağını elan etməsi də bunun bariz ifadəsidir.



Azərbaycan – ABŞ müdafiə əməkdaşlığı da uzun illərdir ki, davam edir və bu, təkcə təlim proqramları ilə məhdudlaşmır. Belə ki, Amerika şirkətləri respublikamızın hərbi-texniki bazasının yenilənməsində də mühüm rol oynayır. Bu sahəyə 2024-cü ildə imzalanmış müqavilələr əhəmiyyətli təsir göstərir. ABŞ istehsalı olan pilotsuz uçuş aparatları və rabitə avadanlıqlarının Azərbaycana idxal olunması, Xəzərdə dəniz təhlükəsizliyi sistemlərinin modernləşdirilməsi üçün birgə layihənin həyata keçirilməsi, müdafiə sənayesində texnologiya transferi ilə bağlı məsləhətləşmələrin uğurla aparılması da bunun bariz ifadəsidir. Ümumiyyətlə, bu sahədə əməkdaşlıq Azərbaycanın regiondakı sülhün və sabitliyin qorunmasında rolunu daha da gücləndirir.

Azərbaycan enerji sektorunda ABŞ ilə əməkdaşlığı strateji əsaslardan biri kimi görür. Xəzər dənizindəki iri neft-qaz layihələri, xüsusilə də "Azəri–Çıraq–Günəşli" və "Şahdəniz" yataqları bu əməkdaşlığın təməlini qoyub. Lakin son illərdə tərəflərin diqqəti bərpa olunan enerji mənbələrinə də yönəlib. ABŞ şirkətləri Azərbaycanda külək və günəş enerjisi layihələrində iştirak etməyə maraq göstərir. Bu, Azərbaycanın "yaşıl" enerji hədəflərinə çatmasında mühüm rol oynayır. Xatırladaq ki, Azərbaycan Dövlət Neft Şirkəti ilə ABŞ-ın enerji nəhəngi "ExxonMobil" arasında imzalanan əməkdaşlıq memorandumu da sözügedən sahədə yeni imkanlar açır.

Sənədə əsasən, neft-qaz hasilatı və emalı sahəsində birgə layihələrin həyata keçirilməsi, ətraf mühitin qorunması və "yaşıl" enerji standartlarının tətbiqi üzrə əməkdaşlığın yaradılması, respublikamızın ərazisində yeni qaz emalı zavodunun inşası üzrə texniki-iqtisadi əsaslandırma işlərinə start verilməsi nəzərdə tutulur. Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf bu barədə deyib: "ExxonMobil" ilə əməkdaşlıq həm enerji təhlükəsizliyi, həm də ekoloji məsuliyyət baxımından böyük əhəmiyyət daşıyır. Biz bu tərəfdaşlığı uzunmüddətli və qarşılıqlı faydalı hesab edirik."

ABŞ texnologiyası və sərmayəsinin ölkəmizə gətirilməsi ilə bağlı isə deyə bilərik ki, bu ölkə investisiyalarının Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə yönəldilməsi diqqət mərkəzində saxlanılır. Hazırda ölkədə 20-dən çox texnologiya parkı və innovasiya mərkəzində ABŞ istehsalı olan avadanlıqlar istifadə olunur. "Google" və "Meta" şirkətləri Azərbaycanın texnologiya ekosisteminə təlim, sertifikasiya və proqramlaşdırma üzrə dəstək verir.

Xatırladaq ki, 2023–2024-cü illərdə ABŞ şirkətləri tərəfindən Azərbaycanda həyata keçirilən ən iri layihələrdən biri Sumqayıt Texnologiyalar Parkında yüksək dəqiqlikli sənaye avadanlıqları istehsalı zavodunun qurulmasıdır. Layihənin ümumi dəyəri 120 milyon dollar təşkil edir.

Azərbaycan – ABŞ strateji tərəfdaşlığı qarşılıqlı etimad, ortaq maraqlar və uzunmüddətli iqtisadi fayda üzərində qurulub. Süni intellekt, bərpa olunan enerji və yüksək texnologiyalar sahəsində yeni təşəbbüslərlə bu əməkdaşlığın daha da güclənəcəyi proqnozlaşdırılıb. ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin sözlərinə desək, bu ölkə Azərbaycanı Cənubi Qafqazın inkişaf mərkəzi, enerji və texnologiya körpüsü kimi görür. Əməkdaşlıq yalnız bugünkü layihələrlə məhdudlaşmır, o, gələcək nəsillərə də xidmət edəcək. Dövlət Neft Şirkəti – "ExxonMobil" memorandumunun icrası və texnologiya transferi isə bu sahədə mexanizmlərin genişlənməsi sayəsində iki ölkə münasibətlərini daha da dərinləşdirəcək.

Dövlət Neft Şirkəti ilə "ExxonMobil" arasında memorandumun imzalanması isə Azərbaycan – ABŞ enerji dialoquna əlavə güc verir, qarşılıqlı investisiya imkanlarını genişləndirir. Bununla yanaşı, sənəd iki tərəf arasında təcrübə mübadiləsi, innovativ həllərin tətbiqi və enerji təhlükəsizliyi sahəsində koordinasiyanı da artıracaq. Bu, Azərbaycanın "yaşıl" keçid strategiyasına uyğun olaraq, enerji resurslarından səmərəli istifadə və ekoloji standartların yüksəldilməsi istiqamətində mühüm addımdır.

Memorandumun imzalanması ilə Dövlət Neft Şirkəti və "ExxonMobil" qarşıdakı illərdə ortaq layihələr üzərində daha fəal işləmək, innovativ texnologiyaları Azərbaycana gətirmək və enerji hasilatında səmərəliyi artırmaq niyyətindədir. Bu əməkdaşlıq respublikamızın enerji sektorunun dünya standartlarına uyğun inkişafına, ölkə iqtisadiyyatına əlavə valyuta axınının təmin edilməsinə və qeyri-neft sektoruna investisiyaların artmasına təkan verəcək.

Qeyd edək ki, ABŞ-ın "ExxonMobil" şirkəti biznes və investisiya qərarlarını səhmdarlarının mənfəətini maksimuma çatdırmaq üçün mandatına uyğun qəbul edən ictimai şirkətdir. Bu energetika şirkəti 1990-cı illərin əvvəllərindən Azərbaycanda səmərəli fəaliyyət göstərir və xarici bazarlara giriş və çıxışla bağlı kommersiya qərarlarını uğurla həyata keçirir. Hazırda səhmdarlarının mənfəətini maksimuma çatdırmaq üzrə eyni səlahiyyətdə olan ABŞ-ın bir çox xidmət təminatçısı da respublikamızın enerji sektorunda fəaliyyətini yüksək səviyyədə davam etdirir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan və ABŞ arasında enerji tərəfdaşlığı gələcəkdə daha da möhkəmlənəcək, regional və qlobal enerji bazarlarında ölkəmizin rolunu daha da gücləndirəcək. Vaşinqtonda imzalanan bu memorandum isə həmin yolun ən mühüm mərhələlərindən biri kimi tarixə düşəcək.

***V.BİNYATOĞLU***
***XQ***

# “Cənubi Qafqazda qarşısıalınmaz proses başlayıb”

## *Vaşinqtonun bölgədəki maraqları Bakının mövqeyi ilə üst-üstə düşür*

**Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü və iştirakı ilə baş tutan görüş, burada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın imzaladıqları Sülh Bəyannaməsi beynəlxalq gündəmdə müzakirə olunan ən aktual mövzudur. ABŞ liderinin “Tarixi gün” adlandırdığı Vaşinqton görüşündə əldə olunan razılaşmanın əhəmiyyəti, sülh perspektivinə verəcəyi töhfələrin xarakteri nədən ibarətdir? Bu, eləcə də digər suallarımızı Qərbi Kaspi Uiversitetinin professoru, politoloq Fikrət Sadıxov cavablandırır.**



**– Fikrət müəllim, Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünü və orada imzalanan sənədləri tarixi və hüquqi cəhətdən necə dəyərləndirərdiniz?**

– Birmənalı olaraq deyə bilərik ki, Vaşinqton görüşünün və orada əldə olunan diplomatik uğurun həm tarixi, həm də siyasi əhəmiyyəti kifayət qədər böyükdür. Bu tarixi hadisəni bir neçə kontekstdən qiymətləndirmək lazımdır. Vaşinqton sammitinin nəticələri iki ölkəni sülhə daha da yaxınlaşdıran real yol xəritəsidir. Sülh sazişi mətninin paraflanmasının bəyan edildiyi sənədi ABŞ Prezidenti Donald Trampın da imzalaması xüsusi önəm kəsb edir. Bunu tərəflərə siyasi dəstək və hüquqi təminat verən amil kimi qəbul etmək lazımdır. Düşünürük ki, bundan sonra rəsmi İrəvan bu istiqamətdə konkret və ciddi addımlar atmalıdır. İmzalanmış ikitərəfli bəyannamədə ATƏT-in Baş katibinə Minsk qrupunun ləğv olunması ilə bağlı birgə müraciətin yer almasına həmin qrupun həmsədr ölkələrindən biri kimi rəsmi Vaşinqtonun da müsbət yanaşması təqdirəlayiq haldır. Əslində, bu təklifin müəllifi Bakıdır və məsələnin həlli, ilk növbədə, Azərbaycanın uğurudur.

**– Vaşinqtonda, həmçinin ABŞ və Azərbaycan arasında imzalanan ikitərəfli bəyannamədə münasibətlərin strateji xarakter aldığı təsdiqləndi. Sizcə, bu sənəd tərəflərə hansı dividendləri gətirəcək?**

– Həmin sənəd özündə ABŞ və Azərbaycanın partnyorluq münasibətlərinin yüksək səviyyətə qalxacağını ehtiva edir. Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün işçi qrupunun yaradılması ondan xəbər verir ki, rəsmi Vaşinqtonun Cənubi Qafqaz regionunda maraqları var və burada Azərbaycanın yerini və rolunu yüksək qiymətləndirir. Bu bölgədə məhz ölkəmizlə strateji əməkdaşlıq əlaqələrini inkişaf etdirmək niyyətini nümayiş etdirən ABŞ-la Azərbaycanın maraqları əksər istiqamətlərdə üst-üstə düşür. Zəngəzur dəhlizinin işə düşməsi ilə bağlı artıq müəyyən razılıq əldə olundu. Açıq deməliyik ki, bu, Azərbaycan diplomatiyasının qazandığı nailiyyətdir. Dövlətimizin başçısı bizim üçün çox böyük əhəmiyyət kəsb edən bu marşrutun açılması ilə bağlı dəfələrlə bəyanatlar vermiş və konkret addımlar atmışdı. Ermənistan rəhbərliyi də Bakının mövqeyindən xəbərdar idi. Aydın məsələdir ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi təkcə Azərbaycanı deyil, Ermənistanı da qane edəcək, bizimlə yanaşı, ermənilərin də Türkiyəyə yolu açılmış olacaq. Regionun və kənar dövlətlərin də maraqlarına cavab verəcək bu nəqliyyat marşrutunun ABŞ şirkətinə icarəyə verilməsi hər iki tərəf üçün məqbul variantdır. Onu da qeyd etmək istərdik ki, bu layihənin reallaşmasında Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik qabiliyyəti, vaxtı və məqamı peşəkarcasına düzgün qiymətləndirməsi önəmli rol oynadı.

**– Sözünüzün qüvvəti, Vaşinqtonda ikitərəfli görüş zamanı ABŞ Prezidenti Donald Tramp İlham Əliyevin liderlik qabiliyyətini xüsusi olaraq qeyd etdi...**

– Bəli. Bu, heç də təsadüfi hadisə deyildi. Çünki həm bu görüşə aparan yolun, həm sülh danışıqlarının belə yüksək formatda yekunlaşmasının arxitektoru məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Axı, sadaladığımız bütün məsələləri Bakı çoxdan qaldırmışdı. Qırx dörd günlük müharibə qurtarandan dərhal sonra İlham Əliyev sülh gündəliyini irəli sürmüşdü. Beş prinsipə əsaslanan sülh təşəbbüsləri son günədək danışıqlar masasının üzərində idi. Müəyyən əlavələrlə məhz Bakının hazırladığı sülh sazişinin mətni üzrə ikitərəfli razılaşma əldə edildi. Hesab edirik ki, bundan Ermənistan da müəyyən dividendlər qazanacaq. İrəvan həm Azərbaycan, həm də Türkiyə ilə sülhə nail olacaqsa, sərhədlər açılacaq. Doğrudur, hələlik münasibətlərin tam mənada bərpa olunması, dostluq əlaqələrinin qurulması mümkün deyil. İndiki mərhələdə bu məsələlər gündəmdə yoxdur. Amma normal qonşuluq siyasəti yürüdüləcək. Bir şərtlə ki, Ermənistan hakimiyyəti konstitusiyasına zəruri düzəlişləri həyata keçirən. Ondan sonra Azərbaycan–Ermənistan münasibətləri daha açıq və şəffaf müstəviyə transformasiya oluna bilər.

**– Yenidən Vaşinqton görüşünə qayıdaraq sülh marafonunun finişə heç də rahat yolla çatmadığına nəzər salmanızı xahiş edərdik.**

– Sirr deyil ki, Cozef Baydenin prezidentliyi dövründə ABŞ administrasiyasının açıq ermənipərəst mövqeyi nəticəsində ikitərəfli münasibətlərimiz xeyli zərər görmüşdü. 2024-cü ildə Donald Trampın yenidən prezident seçilməsi iki ölkə arasında münasibətləri qaydaya salmaq üçün imkan yarandı. Donald Trampın prezident kimi vəzifələrinin icrasına başladığı cari ilin yanvar ayından keçən qısa müddət ərzində iki ölkə rəhbərinin tapşırığı ilə mütəmadi təmaslar həyata keçirildi və yüksək səviyyəli siyasi dialoq üçün zəmin hazırlandı. Bu gün biz həmin diplomatik hazırlıq mərhələsinin yekunu olaraq Vaşinqtonda ABŞ Prezidentinin iştirakı ilə Ermənistan və Azərbaycan liderləri arasında sülhün təməlini təşkil edən Memorandumun imzalanmasının şahidi olduq. Üçtərəfli sənəddə təkcə iki ölkə arasında deyil, bütövlükdə Cənubi Qafqazda sülhə, sabitliyə və əməkdaşlığa yönəlik yeni, qarşısıalınmaz prosesin başlanğıcı sayıla bilər. Bəli, Vaşinqton görüşünə qədər sülh danışıqlarında bir çox nüanslar olub. Onlar həm yaxın, həm də uzaq perspektivdə müzakirə mövzusu olacaq. İndi əsas odur ki, sülh sazişinin mətnini paraflayan Memorandumda öz əksini tapmış bütün maddələr Ermənistan tərəfindən həyata keçirilsin və praktiki addımlarla müşayiət olunsun. Bakı buna çoxdan hazırdır və son söz İrəvanındır.

**– Yəni, iki ölkə arasında yekun sülh müqaviləsinin imzalanması üçün artıq heç bir maneənin qalmadığını söyləmək olarmı?**

– Sülh sazişinin mətninin paraflanması onun imzalanması yolunda atılan çox vacib addımdır. Azərbaycan Prezidentinin görüşdən sonra verdiyi müsahibəsində dediyi kimi, Ermənistanın yerinə yetirməli olduğu ev tapşırıqları hələ durur. Yuxarıda dediyimiz kimi, burada söhbət sülh sazişinin imzalanması üçün Azərbaycanın əsas şərtinin – Ermənistanın konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılmasından gedir. Nikol Paşinyanın Bakının ATƏT-in Minsk qrupunun ləğvi barədə təklifinə razı olması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişə şərait yaratmaq öhdəliyini yenidən təsdiqləməsi, eləcə də “Azadlığa dəstək Aktı”-na 907-ci əlavənin aradan qaldırılması İlham Əliyevin prinsipial mövqeyinin bir daha təsdiqi və Azərbaycanın tarixi uğurudur.

*Söhbəti yazıya aldı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Vaşinqton Zəngəzur dəhlizinə “yaşıl işıq” yandırır

## *“Tramp yolu” Cənubi Qafqazda yeni geosiyasi və iqtisadi nizam yaradacaq*

**Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın Azərbaycan və Ermənistan liderlərini Ağ Evdə qəbul etməsi Cənubi Qafqaz regionu üçün tarixi bir hadisə oldu. Bu görüş İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqların beynəlxalq səviyyədə tanınması və sülh prosesinin ən yüksək səviyyədə dəstəklənməsi baxımından böyük əhəmiyyətə malikdir. Xüsusən də, görüş çərçivəsində “Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu” və ya “Tramp yolu” kimi tanınan sazişin imzalanması, regionun gələcəyi üçün yeni bir dövrün başlanğıcı hesab olunur. “Tramp yolu” adlanmasına baxmayaraq, hamı başa düşür ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir.**



“Tramp yolu” – Zəngəzur dəhlizinin diplomatik adıdır. Sazişin “Tramp yolu” adlandırılması simvolik olsa da, mahiyyət etibarilə Zəngəzur dəhlizinin beynəlxalq səviyyədə tanınması və təsdiqlənməsidir. Bu dəhliz Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında birbaşa əlaqəni təmin edir, regionda maneəsiz gediş-gəliş prinsipini hüquqi çərçivəyə salır. Açıq kommunikasiya xətləri region ölkələri arasında iqtisadi əməkdaşlığı təşviq edəcək. Bu, təkcə Azərbaycan və Ermənistan üçün deyil, həm də Rusiya, Türkiyə, İran və Gürcüstan kimi qonşu ölkələr üçün yeni imkanlar yaratmaqla yanaşı, Cənubi Qafqazı Avrasiya nəqliyyat arteriyasına çevirəcək.

“Tramp yolu” sazişinin regional enerji layihələrinə təsiri həm strateji, həm də praktik baxımdan əhəmiyyətlidir. Bu saziş Cənubi Qafqazın enerji xəritəsini yenidən formalaşdırmaqla yanaşı, Azərbaycanın Avropaya və dünyaya enerji tranzit rolunu daha da gücləndirir. Zəngəzur dəhlizi vasitəsilə enerji resurslarının daha sürətli və təhlükəsiz şəkildə Avropaya çatdırılması mümkün olacaq.

Bu saziş nəticəsində Azərbaycan iqtisadi və logistik üstünlüklər əldə edir. O cümlədən Bakının siyasi mövqeyi daha da güclənmiş olur. Eyni zamanda, Azərbaycanın regional liderlik faktını beynəlxalq səviyyədə təsdiqləyir. “Tramp yolu” sazişi, həmçinin enerji sahəsində Azərbaycanın strateji mövqeyini gücləndirir, Avropanın enerji təhlükəsizliyinə töhfəsini yeni səviyyəyə yüksəldir və regional enerji layihələrinin inkişafına yeni impuls yaradır. Bu, yalnız nəqliyyat deyil, həm də enerji diplomatiyasının yeni mərhələsi deməkdir. Bundan başqa, “Tramp yolu” Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirir. Eyni zamanda, bu dəhliz Türkiyə və Yaxın Şərqə enerji daşımalarında yeni logistik imkanlar yaradır. SOCAR artıq Suriyanın enerji infrastrukturunun bərpasında iştirak edir və gələcəkdə bu marşrut Misirə qədər uzana bilər.

2020-ci il müharibəsindən sonra Azərbaycan regional nizamda aparıcı mövqeyə malikdir. Ərazi bütövlüyünün bərpası, sərhəd təhlükəsizliyinin təmin olunması və yeni nəqliyyat-kommunikasiya xətləri ölkəmizin həm iqtisadi, həm də siyasi çəkisini artırır. Zəngəzur dəhlizi bu strategiyanın məntiqi davamıdır və bu yolun işə düşməsi Azərbaycanın regiondakı əsas tranzit mərkəzinə çevrilməsi prosesini sürətləndirir.

Vaşinqton sazişi Ermənistan üçün də yeni çağırış və fürsətdir. Çünki bu proses İrəvana yeni iqtisadi inteqrasiya imkanları yaradır. Habelə daxili siyasi konsensus və regional əməkdaşlıq üçün ciddi dəstəkdir. Bununla Ermənistan sülhə yönəlmiş real addımlar atmaqla blokadadan çıxış və inkişafa keçid imkanı qazanır. Zəngəzur dəhlizi Ermənistanın regional ticarətə qoşulmasına imkan verəcək.

Ümumiyyətlə, “Tramp yolu” sazişi beynəlxalq hüquq baxımından bir neçə mühüm elementi özündə birləşdirir. Saziş Zəngəzur dəhlizi boyunca maneəsiz keçid hüququnu təsdiqləyir. Bu, Azərbaycanın uzun müddətdir tələb etdiyi prinsipin beynəlxalq hüquqi çərçivəyə salınması deməkdir. Bundan başqa, Ermənistan və Azərbaycan arasında tranzit və təhlükəsizliklə bağlı konkret öhdəliklər müəyyən edilir. Bu öhdəliklər pozularsa, beynəlxalq arbitraj mexanizmləri işə düşə bilər.

İkinci mühüm məsələ kimi ABŞ-ın zəmanətini qeyd etmək lazımdır. Sazişə ABŞ-ın imza atması, onun yalnız regional deyil, qlobal hüquqi çərçivədə də tanınmasına zəmin yaradır. Bu, həm də sazişin icrasına beynəlxalq təminat verir. Buna görə də “Tramp yolu” sazişi, sadəcə, bir nəqliyyat layihəsi deyil – bu, hüquqi legitimlik, iqtisadi transformasiya və geosiyasi balans baxımından Cənubi Qafqazın gələcəyini formalaşdıran bir sənəddir. Azərbaycan üçün bu, strateji vizionun reallaşması, Ermənistan üçün isə tarixi seçim anıdır.

Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsindəki hərbi qələbədən sonra sülh prosesində də qətiyyətli və ardıcıl mövqe nümayiş etdirdi. O, dəfələrlə hər iki ölkənin bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıdığı bir sülh sazişinin imzalanmasının vacibliyini vurğuladı. Buna görə də Ağ Evdə təşkil olunan görüş Azərbaycan liderinin çox böyük diplomatik uğuru kimi qiymətləndirilir. Ona görə ki, bu görüşün nəticələri Azərbaycanın təkcə hərbi gücə malik ölkə kimi deyil, həm də regional lider və etibarlı beynəlxalq tərəfdaş kimi nüfuzunu bir daha nümayiş etdirdi. Həmçinin Azərbaycanın qlobal enerji və nəqliyyat layihələrindəki rolunu, geosiyasi əhəmiyyətini daha da artırdı.

Əlbəttə, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə baş tutan bu görüş Cənubi Qafqaz üçün yeni bir eranın başlanğıcıdır. Bu, sadəcə, iki ölkə arasında sülh sazişinin imzalanması deyil, həm də regionun qarşıdurmadan əməkdaşlığa doğru dönüşünü simvolizə edir. Azərbaycanın liderliyi və beynəlxalq dəstək sayəsində bölgəni uzun illər ərzində bürüyən münaqişə kölgəsi aradan qalxır və yerini sülh və inkişafa verir.

Beləliklə, Zəngəzur dəhlizi artıq, sadəcə, regional kommunikasiya xətti deyil, beynəlxalq iqtisadi və siyasi layihə statusu qazandı. ABŞ-ın zəmanəti onun davamlı işləməsini təmin etməklə yanaşı, Cənubi Qafqazı dünya ticarət xəritəsində daha mühüm mövqeyə gətirir. Azərbaycanın isə bu prosesin mərkəzində dayanaraq həm iqtisadi dividendlər, həm də geosiyasi nüfuz baxımından böyük qazanc əldə edəcəyi şübhəsizdir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Diplomatiya problemi hədəfə alır

**ABŞ paytaxtında keçirilən görüş bir həqiqəti də ortaya qoydu: Azərbaycanın uğurlarının və diplomatik qələbələrinin açarı ondan ibarətdir ki, ölkə xarici siyasət məqsədlərinə çatmaq üçün diplomatiyadan sadəcə bir vasitə kimi deyil, effektiv mexanizm və strategiya kimi istifadə edir. Ölkə öz maraqlarının müdafiəsini regional təhlükəsizliyin möhkəmləndirilməsi ilə məharətlə birləşdirir, həmçinin Cənubi Qafqazda güc balansında fəaliyyət göstərən qlobal oyunçuların maraqlarını müdafiə edir. Belə hərtərəfli və balanslaşdırılmış diplomatiya Azərbaycana öz təsirini inamla möhkəmləndirməyə və regionda əsas rol oynamağa imkan verir. Vaşinqton görüşlərində bunun canlı şahidi olduq.**



**Yeganə HACIYEVA,**
**politoloq**

Son illər Azərbaycan özünəməxsus diplomatik qələbələr silsiləsi, fikrimizcə, hələ 2020-ci ildən əvvəl başlayıb. Amma məhz bu dövrdən sonra dünya diplomatiyamızın həm uğurlarını, həm də mükəmməlliyini tanıdı. Bu, ondan ibarətdir ki, Azərbaycan xarici siyasətdə nəinki məqsədlərinə çatmaq və öz maraqlarını qorumaq üçün alət və strategiyalardan istifadə edir, onları səfərbər edir, həm də bu prosesə regionda təhlükəsizliyin möhkəmləndirilməsini, eləcə də Cənubi Qafqazda mövcud qlobal oyunçuların maraqlarını nəzərə alır.

Prezident İlham Əliyevin Vaşinqtona səfəri, onun gündəliyi və əldə olunan uğurlar Azərbaycanın mükəmməl diplomatik bacarığının növbəti nümayişi oldu.

Şuşada keçirilən Qlobal Media Forum zamanı dövlətimizin başçısı mühüm siyasi gediş edərək çıxışında Donald Trampın ABŞ-ın müasir tarixində müharibələrə başlamayan, əksinə, müharibələri dayandırmağa çalışan yeganə prezident olduğunu vurğuladı. İlham Əliyevin bu jesti xoşməramlılıq siqnalına çevrildi və Amerika liderinin qarşılıqlı addım atmasına, iki ölkə arasında etimad mühitinin möhkəmlənməsinə səbəb oldu. Bu kontekstdə bu səfər xüsusi əhəmiyyət kəsb edir. Əminliklə demək olar ki, Vaşinqton görüşünü 30 ilə yaxın davam edən münaqişəyə son qoyacaq əsas mərhələ hesab etmək olar. Görüşün gündəliyi ilə bağlı qeyd edək ki, sülh müqaviləsinin imzalanması prosesini başa çatdırmasa da, Vaşinqton Memarondumu gələcək danışıqlar üçün konkret çərçivə müəyyən etdi.

Məhz bu səfər regionda təhlükəsizlik maraqlarını və ikitərəfli əlaqələrin inkişafını nəzərə alaraq ABŞ və Azərbaycan arasında strateji münasibətləri gücləndirir. Bu, şübhəsiz ki, ikitərəfli münasibətlərdə son onilliklərin ən mühüm görüşü və səfərlərindən biridir.

Hazırda dünyada geosiyasi vəziyyət köklü şəkildə dəyişir, yeni dünya düzəni formalaşır. Bu transformasiyaların tərkib hissəsi kimi strateji tərəfdaşlıq anlayışları da dəyişir, münasibətlərin klassik sistemi müasir reallıqlara cavab vermir. Buna görə də, mövcud münasibətlərin yenilənməsinə, müasir dünyanın çağırışlarına effektiv şəkildə cavab verə biləcək yeni, daha çevik tərəfdaşlıq sisteminin yaradılmasına təcili ehtiyac var.

Hazırda strateji tərəfdaşlıq meyarları ayrı-ayrı ölkələrin siyasi ehtiyacları və daxili siyasi konyukturaları əsasında formalaşır. Bu gün yeni strateji tərəfdaşlıq sisteminin əsaslarını Azərbaycan və ABŞ-ın siyasi maraqları və ehtiyacları müəyyən edir. Bu sistem, şübhəsiz ki, iki dövlət arasında münasibətləri yeni, daha yüksək əməkdaşlıq səviyyəsinə çıxaracaqdır. Onu da qeyd edək ki, bu gün qlobal inkişafın əsas siyasi məsələlərində ABŞ və Azərbaycan bir çox cəhətdən oxşar mövqelərdən çıxış edirlər. Bir sıra münaqişələrdə və müxtəlif regionlarda bizim baxışlarımız üst-üstə düşür və bu, əlbəttə ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq üçün yeni meyarların hazırlanmasına təkan verir.

Vurğulamaq istədiyimiz digər vacib cəhət Vaşinqton səfərinin iqtisadi komponentidir. Strateji tərəfdaşlığın iqtisadi ölçüsü də böyük əhəmiyyət kəsb edir.

İki gün əvvəl Prezident İlham Əliyevin ABŞ-a səfəri zamanı ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoffun iştirakı ilə SOCAR ilə “ExxonMobil” arasında imzalanmış “Əməkdaşlıq Memorandumu” ölkələr arasında iqtisadi əməkdaşlığın daha da dərinləşəcəyinə və inteqrasiya olunacağına dəlalət edir.

Zəngəzur dəhlizi ilə bağlı əldə edilən irəliləyiş region ölkələrinin gələcəyinə qoyulan mühüm sərmayədir. Dəhliz, həmçinin Azərbaycanla Ermənistan arasında sülhü daha dayanıqlı etməyə xidmət edəcək. Aydın məsələdir ki, sülhün daha sabit olması yalnız hüquqi maneələr aradan qaldırıldıqdan sonra mümkündür.

Bu gün Ermənistan konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı hüquqi iddialar mövcuddur və onların aradan qaldırılması üçün Ermənistan ciddi addımlar atmalıdır.

Vaşinqtondakı tarixi görüşün nəticələri regionun gələcək siyasi və iqtisadi mənzərəsini formalaşdıracaq. Strateji tərəfdaşlıq, sülh prosesinin irəliləməsi və yeni kommunikasiya xətlərinin açılması bölgədə dayanıqlı sabitliyin və inkişafın bünövrəsini möhkəmləndirəcək.

Azərbaycanın və Ermənistanın XİN başçıları ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı qurumun fəaliyyətdə olan sədrinə birgə müraciət imzalayıblar. Bu isə “de-fakto” fəaliyyətsiz qalmış Minsk qrupunun “de-yure” ləğvi prosesinin başlanğıcı deməkdir.

# “907-ci düzəliş” qüvvədən salındı

*Bunu ABŞ–Azərbaycan strateji əməkdaşlığının yeni səviyyəsi tələb edir*

**Avqustun 8-də ABŞ-da Azərbaycanın ən müasir tarixi üçün olduqca mühüm bir hadisə baş verdi. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında məhsuldar və nəticəli görüş keçirildi. Ölkə ictimaiyyəti gecənin bir aləmində “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in razılaşdırılmış mətninin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdi. Azərbaycan lideri İlham Əliyevin ABŞ-a bu səfəri artıq təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də Vaşinqton Zəfəri kimi qiymətləndirilir.**



Şübhəsiz ki, ABŞ Konqresinin 1992-ci il avqustun 6-da qəbul etdiyi “Azadlığı müdafiə Aktı”na 907-ci düzəlişin ləğvi səfər çərçivəsində əldə olunmuş çox mühüm uğurlardan biridir. Bu düzəliş 33 il əvvəl müstəqilliyini yenicə qazanmış Azərbaycana qarşı tətbiq olunmuş ən böyük ədalətsizlik idi. Prezident Donald Tramp tərəfindən onun ləğv edilməsi xüsusi əhəmiyyət daşıyır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə – 1992-ci ildə ABŞ Konqresi tərəfindən rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı ayırmasına qadağa qoyması başa düşülməsi olduqca çətin bir qərar idi. Elə çətin bir dövrdə Ermənistan tərəfindən işğala məruz qalmış Azərbaycan bir tərəfdən ərazilərini itirir, insanları qaçqın və məcburi köçkünə çevrilir, digər tərəfdən isə SSRİ-nin dağıldığı, iqtisadi əlaqələrin pozulduğu, sosial vəziyyətin sıfır həddinə düşdüyü bir vaxtda ABŞ-ın dövlət yardımından da məhrum edilirdi. Amma təcavüzkar, Azərbaycanın abad şəhər və rayonlarını viranəyə çevirən Ermənistan bu illər ərzində ABŞ-dan milyardlarla dollar dövlət yardımı aldı. Bu ədalətsizliyin sonu gəlməli idi,..

Azərbaycan uzun illər bu ədalətsiz qərarın dayandırılması uğrunda mübarizə aparmalı oldu. Doğrudur, ABŞ-ın bəzi liderləri müxtəlif illərdə bədnam 907-ci düzəlişin tətbiqinin dayandırılması ilə bağlı addımlar atdı. Amma bu qərarlar müvəqqəti xarakter daşıyır, düzəliş sonra yenidən bərpa olunurdu. Elə ABŞ-ın Trampdan əvvəlki prezidenti, demokrat Co Baydenin hakimiyyəti dövründə də düzəliş qüvvəsində saxlanıldı.

Şübhəsiz ki, 907-ci düzəliş təkcə Azərbaycana zərər vurmadı. Bu qərar ABŞ-ın da strateji maraqlarına uyğun deyildi və ölkələr arasında qarşılıqlı əlaqələr və əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması üçün böyük əngəl oldu. Son onilliklər ərzində “Domokl qılıncı” kimi hər iki ölkənin başı üstündə asılmış bu qadağa həm də Azərbaycan ictimaiyyəti tərəfindən ədalətsizlik və ikili standartlar nümunəsi kimi qitmətləndirildi.

İndi bu bədnam düzəlişin ortadan qaldırılması iki ölkənin münasibətlərini strateji müttəfiqlik səviyyəsinə qaldırır. Buna görə də Prezident İlham Əliyevin bu səfəri beynəlxalq aləmdə haqlı olaraq Vaşinqton Zəfəri adını alıb.

Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycan media təmsilçilərinə müsahibəsində dedi ki, ədalətsiz 907-ci düzəlişin ləğv edilməsi, bunun məhz Ağ Evdə onun iştirakı ilə baş tutması rəmzi xarakter daşıyır. Yəni, ABŞ Prezidenti Donald Tramp bununla bağlı sənədi “başqa bir formatda da” imzalaya bilərdi. “Amma o, mənim iştirakımla bunu etməyə qərar vermişdi”, – deyə Azərbaycan Prezidenti əlavə edib.

***Paşa ƏMİRCANOV***
***XQ***

### *Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq**

Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtondakı çıxışında ədalətsiz 907-ci düzəlişlə bağlı fikirlərini bildirdi. Onu əlavə edə bilərik ki, bu düzəliş 2001-ci ildən bəri ABŞ prezidentlərinin müstəsna səlahiyyətləri daxilində birillik müddətə dayandırılırdı. Son illər Bayden–Blinken administrasiyası bundan Azərbaycana qarşı şantaj, təzyiq vasitəsi kimi istifadə edirdi. Amma onlar bundan heç nə əldə edə bilmədilər.

İndi isə Prezident Donald Tramp özünün müstəsna səlahiyyətlərindən istifadə edərək, 907-ci düzəlişin qüvvəsini birillik dayandırdı. Əlbəttə, bu, həmin maddənin tam ləğvi demək deyil. Bununla belə, biz anlayırıq ki, Trampın prezidentliyi dövründə bu trend qorunub saxlanacaq. Çünki Azərbaycanla ABŞ arasında imzalanmış strateji tərəfdaşlıq münasibətlərinə dair xartiya haqqında memorandum bu düzəlişlə uyğun gəlmir.

Deməli, ikitərəfli münasibətlərə dair memorandum imzalanıbsa, işçi qrup yaradılıbsa və yaxın gələcəkdə xüsusi sənəd olacaqsa, o zaman 907-ci düzəlişin qüvvəsinin dayandırılması ilə bağlı hər il qərar qəbul edilməlidir. Belə olan halda Azərbaycan üçün çox vacibdir ki, bu düzəliş tamamilə ləğv edilsin.

Bunun üçün ABŞ-Azərbaycan münasibətləri kifayət qədər dərinləşməli və genişlənməlidir ki, Prezident, Senat və Konqres tərəfindən yekdil bir qərara gəlinmiş olsun. 907-ci düzəlişin ləğvi hakimiyyətin bu üç qanadından asılıdır. Bundan əlavə, Ermənistanla da normallaşma prosesi dərinləşməli və genişlənməlidir ki, düzəlişin saxlanması üçün əsas qalmasın.

Düşünürəm ki, yaxın gələcəkdə, yəni, Donald Trampın hakimiyyətinin davam edəcəyi qarşıdakı 3 il yarım ərzində bu düzəlişin tamamilə ləğvi ilə bağlı tarixi qərar qəbul oluna bilər.

# Odessada SOCAR-ın obyektinə Rusiyanın raket hücumu

**Bu günlərdə Ukraynanın Odessa istiqamətindəki qaz kəməri sisteminə və SOCAR-ın yanacaqdoldurma məntəqəsinə edilən raket hücumları, Rusiyanın Azərbaycanın suverenliyinə və iqtisadi təhlükəsizliyinə qarşı atdığı açıq təhdidlər kimi qiymətləndirilir. Bu addımlar təkcə müharibə qaydalarını pozmaqla qalmayıb, həm də beynəlxalq hüququ, o cümlədən diplomatik və mülki obyektlərin toxunulmazlığını təmin edən Vyana Konvensiyasına qarşı hörmətsizliyin bariz nümunəsidir. Rusiyanın bu davranışı, onun postsovet məkanında hələ də imperiya ambisiyalarını reallaşdırmağa çalışdığını, lakin Azərbaycanın güclü və müstəqil siyasəti fonunda bu cəhdlərinin uğursuzluğa məhkum olduğunu göstərir.**



Azərbaycanın Ukraynadakı səfirliyi yaxınlığında raket zərbəsi endirilməsi, daha sonra SOCAR-ın ofisi və qaz nəqli sisteminin hücuma məruz qalması adi bir hadisə kimi qiymətləndirilə bilməz. Bu, Rusiyanın Azərbaycanın Ukraynadakı fəaliyyətinə bilərəkdən zərbə vurmağa yönəlmiş düşünülmüş siyasətinin tərkib hissəsidir. Bu hərəkətlər Moskva tərəfindən Azərbaycanın müstəqil enerji və tranzit siyasətinə qarşı qəzəbin ifadəsidir. Kreml Bakının uğurlu regional siyasəti və beynəlxalq dəstəyi fonunda təsirinin azaldığını gördükcə, təzyiqləri artırmağa çalışır.

Rusiya siyasi dairələrinin təbliğat maşınlarından biri olan “Moskovskiy komsolets” qəzetinin avqustun 8-də dərc etdiyi məqalə Moskvanın bəd niyyətlərini açıq şəkildə ortaya qoyur. “Rusiya Bakı ilə bağlı enerji sxemlərinə arxalanan hər kəsə şillə vurdu” başlıqlı məqalə suveren dövlətlərə qarşı şovinist və himayədar bir ton nümayiş etdirir. Odessada baş verən partlayışların Kiyevə və Bakıya ünvanlanmış “aydın siqnal” olması, həmçinin bu hadisənin “Rusiyadan yan keçərək yanacaq tədarükünü təşkil etmək cəhdlərinin qarşısının alınması” kimi təqdim edilməsi Rusiyanın digər ölkələrin enerji siyasətini diktə etmək hüququna malik olduğu fikrini əks etdirir. “Strateji sillə” kimi ifadələrin istifadəsi isə dominant və aqressiv mövqeyin bariz göstəricisidir.

Məqalə faktiki olaraq hərbi qüvvədən istifadəni və mülki infrastrukturun məhv edilməsini xarici siyasət aləti kimi haqlı çıxarmağa çalışır. Bu, Rusiyanın öz məqsədlərinə çatmaq üçün destruktiv metodlara əl atmaqdan çəkinmədiyini və bununla regional sabitliyi təhdid etdiyini göstərir. Şübhə yoxdur ki, “Naftoqaz” Qrupunun “SOCAR Energy Ukraine” şirkəti ilə Azərbaycan qazının alınmasına dair ilk müqavilənin bağlanması Rusiyada ciddi qəzəb və hiddət doğurub. Bu, bir vaxtlar Rusiyanın qazını ixrac etdiyi boru kəmərlərindən Ukraynanın indi Azərbaycan qazını idxal etməsi deməkdir. Bu vəziyyət Rusiyanın regional enerji siyasətindəki mövqeyini sarsıtdığı üçün Kreml bu reallıqla barışmaq istəmir və hərbi zərbələr vasitəsilə cavab verir.

AZAL təyyarəsinin vurulması faktı da beynəlxalq hüquq normalarına tamamilə ziddir. Mülki aviasiya obyektlərinə qarşı hərbi müdaxilə, Chicago Konvensiyası və BMT-nin hava nəqliyyatı üzrə prinsipləri baxımından ciddi pozuntu hesab olunur. Hadisənin Rusiya hərbi qüvvələrinin nəzarətində olan ərazidə baş verməsi məsuliyyəti birbaşa Moskvanın üzərinə qoyur. Rusiya rəhbərliyinin hadisəyə görə üzr istəməməsi, kompensasiya ödəməməsi və günahkarların cəzalandırılmasına çalışmaması təkcə bir dövlətin hava məkanına hörmətsizlik deyil, həm də regionda sabitliyə qarşı yönəlmiş təhlükəli presedentdir.

Eyni zamanda, Yekaterinburqda azərbaycanlılara qarşı baş vermiş hücumlar da etnik motivli zorakılıq kimi qiymətləndirilir. Rusiya hüquq-mühafizə orqanlarının passiv mövqeyi və cinayətkarların cəzalandırılmaması ictimai narazılığı artırır. Bu hadisələr diaspor münasibətlərinə, insan hüquqlarına və dövlətlərarası etimada zərbə vurur. Azərbaycan ictimaiyyəti bu hadisələrə qarşı etirazlarını bildirir, Rusiya hökumətindən ədalətli araşdırma və cəza tələb edir, lakin Moskvanın susqunluğu və qeyri-kafi reaksiyası münasibətlərdə etimad böhranı yaradır.

Ümumiyyətlə, Rusiya uzun illərdir Cənubi Qafqazda öz maraqlarını qorumaq üçün balanssız və imperialist siyasət yürüdür. Bu siyasət regionda sabitliyə deyil, gərginliyə və asılılığa xidmət edir. Xüsusilə Azərbaycanla bağlı məsələlərdə Moskvanın tutduğu mövqe, beynəlxalq hüquq normalarına və regional reallıqlara ziddir. Rusiya Cənubi Qafqazda sülh və əməkdaşlıq istəyirsə, yırtıcı və destruktiv siyasətdən əl çəkməli, Azərbaycanın haqlı tələblərini yerinə yetirməlidir. Bu, yalnız regionun deyil, Rusiyanın özünün də gələcək nüfuzu və etibarı üçün vacibdir.

Bir sözlə, bu hadisələr beynəlxalq hüquq, insan hüquqları və diplomatik etimad baxımından ciddi narahatlıqlar doğurur. Məsuliyyətin əsas yükü Moskvanın üzərinə düşür və gərginliyin aradan qaldırılması üçün Rusiya tərəfi konkret, şəffaf və hüquqi əsaslı addımlar atmalıdır. Əks halda, regionda sabitlik və əməkdaşlıq perspektivləri ciddi şəkildə zədələnə bilər.

***M.SƏBUHİ***
***XQ***

# Zəfər marafonumuzun İlham Əliyev fenomeni

*ABŞ Prezidenti Azərbaycan Prezidentinə dedi: “Sən böyük lidersən”*

**Xalqımızda bir gözəl misal var: Hər qaranlıq gecənin bir işıqlı səhəri var. Babalarımız bu inamla çox zülmət axşamı nurlu sabaha calayıb. 30 illik qanlı-qadalı, ağrılı-acılı, kədərli-faciəli Qarabağ münaqişəsi və müharibəsinə son qoymuş 44 günlük zəfər yürüşümüz 5 il əvvəl noyabrın 9-dan 10-na keçən gecə işğalçı Ermənistanın diz çöküb yalvarması ilə işıqlı sabaha açılmadımı?**



Lakin Qərbdə və Şərqdəki ağa və himayədarlarının siyasi girovuna çevrilmiş başabəla toplumun başbilənləri ötən 5 ildə bu çarəsiz məğlubiyyətin sülh sazişi ilə rəsmiləşdirilməsini hər vasitə ilə uzadır və pozurdu. Vaxt məğlub tərəfin ziyanına mənasız yerə uzanıb gedirdi. Qalib Azərbaycanın müdrik lideri Prezident İlham Əliyev isə sülhün alternativsizliyini bütün dünyaya bəyan edir, gerçəkliyi anlasa da qəbul etmək istəməyən İrəvan elitasının güclü bir təsirlə başa salınacağı günü təmkin və qətiyyətlə gözləyirdi.

Nəhayət, o gün də gəldi və yenə Azərbaycan üçün daha bir qaranlıq gecə sevincli sabahla əridi. Avqustun 8-dən 9-na keçən gün təkcə bizim deyil, bütün dünyanın gözlədiyi işıqlı bir sabaha açıldı. Biz də, dünya da Qarabağın azad edilməsi kimi, işğalçı tərəfin sülh gerçəyini necə lazımdırsa qəbul etməsini də möcüzə kimi qarşıladı.

Elə bu möcüzə səbəbi ilə də mən bu yazını 5 il əvvəl –Vətən müharibəsi günlərində işğalda olan şəhər və kəndlərimizin sürətlə azad olunduğu zaman qələmə almaq istəmişəm. İş elə gətirdi ki, sanki, bu yazını “ləngitməklə” bütöv bir romanın son nöqtələrini gözləmişəm: Azərbaycan Prezidentinin bizdə gecəyarı olan, Amerikada isə günorta keçirilən Vaşinqton görüşlərini deyirəm! Bəs bütöv bir epopeyanın son vərəqi olan bu qələbə öz başlanğıcını hardan alıb?

İndi aydınca görünür ki, bu zəfər marafonu İlham Əliyevin Prezidentliyə qədəm qoyduğu andan başlayıb və bu günə gəlib çatıb. Ümummilli lider Heydər Əliyevin siyasi yetirməsi və varisi, yeni tipli lider İlham Əliyev Ulu öndərin xeyir-duası ilə liderlik estafetini qəbul edib, xalqın mütləq etimadını qazanıb ilk dəfə Prezident kimi and içəndə torpaqlarımızın bir qarışının da düşmənə güzəşt edilməyəcəyini inamla vurğulamışdı. Köçkün və qaçqınlarla hər görüşündə dövlət başçısı bu məramı qətiyyətlə bəyan edirdi. Bir lider kimi xalq onun işğalçıya ünvanladığı bu mesajlara dərin inamla yaşayırdı.

Biz ədaləti özünə baş hədəf seçmiş yeni liderimizə ona görə inanırdıq ki, onun bütün fəaliyyətində və çıxışlarında qəribə və təbii bir səmimiyyət var idi. Onun bütün vədləri 44 günlük Vətən müharibəsi günlərində özünü doğrultdu. Ali Baş Komandanın “Mən bilirdim nəyi, necə, nə zaman etmək olar” deyimini xalq lider müdrikliyinin loqosu, ölkəmizin qələbə düsturu kimi qarşıladı.

Azərbaycan lideri İlham Əliyev səmimiyyət və qətiyyəti Vətən müharibəsi günlərində bəzi xarici jurnalistlərin qərəzli suallarına cavablarında da özünü göstərirdi. Həqiqətdən güc alan bu möhtəşəm dəyanət canlarını Vətən yolunda fəda etmiş şəhidlərimizin qəhrəmanlığına geniş yol açdı. Şəhidlərimizin, qazilərimizin qanı ilə, ordumuzun gücü ilə başa çatan Zəfər yürüşümüzün önündə Ali Baş Komandan İlham Əliyevin dünyaya göstərdiyi planetar təfəkkür döyüş bayrağına çevrildi.

30 illik yorucu, bezdirici gözləmələrdən sonra Qarabağın azadlığa qovuşması, işğalçının ayağının torpaqlarımızdan kəsilməsi xalqımıza möcüzə təsiri bağılamışdı. Mediamız da Şuşanın, Xankəndinin fəthi kimi qələbələrimizi “möcüzə” deyə təqdim etmişdi. Amma bunlar möcüzə deyil, Ali Baş Komandanın bəşəri düşüncəsinin, irimiqyaslı zəkasının yaratdığı gerçəklik idi. Deməli, möcüzə Tanrının bizə bəxş etdiyi İlham Əliyevin zəkası, iradəsi, uzaqgörənliyinin əmələ çevrilməsidir.

Həmin təfəkkür, bənzərsiz xarizma bu gün dünyanın ən güclü dövlətlərinin liderlərini onun yaratdığı gerçəkliyi qəbul etməyə, qiymətləndirməyə yönəldir, bu məntiqlə hesablaşmaq zərurəti yaradır. Min illik Azərbaycan tarixində İlham Əliyevin nadir təfəkkürünü xalqımız Allah vergisi kimi qəbul etməkdə tam haqlıdır. Dünyanın ən iri, güclü dövləti olan Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampla Azərbaycan Prezidenti İlham Əliyevin görüşü bu təfəkkürün planetar səviyyədə olduğunu bir daha sübut etdi. Superdövlətin birinci şəxsi elə belə dedi: “Xalqınız böyük xalqdır... Siz böyük lidersiniz”.

Və 2025-ci ilin 8 avqusundan 9-na keçən gecə bütün dünyanın diqqəti Vaşinqtona yönəlmişdi. Milyardlarla insan nəfəs dərmədən gözləyirdi: inanılmaz bir hadisə – aylarla, illərlə uzanan, Makronların mane olduğu Ermənistan – Azərbaycan sülh müqaviləsi, nəhayət, imzalanmağa yönləndiriləcəkmi? Dünya gözləməklə yanaşı, həm də inanırdı ki, Azərbaycan Prezidentinin planetar təfəkkürü öz sözünü deyəcək.

Əsrlərlə davam edən Ermənistan düşmənçiliyi onun rəhbərinin soyuq təbəssümü ilə sona yetdi: Qafqazda yeni tarix yazıldı, sülhə inam təntənəsi yaşandı. Daha bir işıqlı sabaha yön alıb dünyaya yayılan bu tarixi hadisə, çox güman ki, bu gün müharibə gedən ölkələrin hökm verənlərinə də bir dərs olacaq! Mütləq olacaq!

“Bir gecənin möcüzəsi”. “Möcüzəmi?” – Qətiyyən yox! Bu, İlham Əliyevin planetar təfəkkürünün qələbəsidir. Bu Qələbənin canlı şahidi olmaq üçün Azərbaycan xalqı 8 avqust gecəsini yatmadı. ABŞ Prezidenti Donald Tramp İlham Əlyevə onun cəsarəti ilə fəxr etdiyini dedi.

Jurnalistlərimiz görüşün hər anını oxuculara, tamaşaçılara təqdim etdilər. Trampın Əliyevlə görüş anları hər iki liderin məmnunluq hisslərinin səmimi ifadəsi oldu.

Bu görüşdən qaynaqlanan siyasi dividentlərə nəzər salaq:

– Azərbaycanın çoxdan imtina etdiyi Minsk qrupunun buraxılması;

– ABŞ-ın Azərbaycanı dövlət yardımından məhrum etdiyi “907-ci düzəliş”in ləğvi;

– Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası ilə bağlı Anlaşma Memarondumunun imzalanması;

– Və ən başlıcası, Azərbaycanın diqtə etdiyi sülh şərtlərinin bütünlüklə qəbul edilib imzalanmağa yönəldilməsi.

Sənədlər imzalandı, tarixi görüş başa çatdı. Azərbaycan jurnalistləri, sosial şəbəkə istifadəçiləri gecənin oğlan çağında tarixi qələbə müjdəsini ictimaiyyətə yaydı. Bu möcüzəli uğur gecəsində mən də Vaşinqton görüşünü xalqımıza yüksək peşəkarlıqla çatdıran çoxsaylı tələbələrimlə də qürur duydum. Prezidentimizə informasiya dəstəyi verən mediamızla fəxr etdim. Əlimi Uca Tanrıya uzadıb Prezidentimizə uzun ömür, yeni qələbələr arzuladım.

Həmin anlarda yanımdakı yuxusu qaçmış, sevincimi balaca qəlbi ilə duymağa çalışan 4 yaşlı nəvəmə - Yusifə üz tutdum:

– Mənim balam, biz bu dünyada çox əziyyət çəkdik, ağır günlər yaşadıq. Mən – sənin 83 yaşlı baban müharibə illərində doğuldum, ömrün ahıl çağı da müharibə illərinə düşdü. Amma bu Vətən müharibəsi idi. Ona görə oğullarımız Prezident Ali Baş Komandan İlham Əliyevin bir çağırışı ilə cəbhəyə yollanıb düşmənin başını əzdi.

Şükür Tanrıya, sən Azərbaycanın qürurlu günlərini yaşayırsan. Allah sizin nəslə müharibə göstərməsin! Amma Prezidentimizin bir sözünü heç vaxt unutma: “Biz düşmənlə barışa da bilərik, sülh sazişini imzalaya da bilərik, amma heç vaxt kiməsə arxayın olmamalıyıq”.

***Cahangir MƏMMƏDLİ,***
***BDU-nun media tarixi kafedrasının müdiri, professor***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 166 (30860) 10 avqust 2025-ci il, şənbə



## İDMAN

### “Everest” fatehi ekranda

**Everest zirvəsini fəth edən ilk azərbaycanlı qadın alpinist Elmira Aslanovaya həsr olunmuş “Arzunun ardınca” filminin təqdimat mərasimi keçirilib.**



Mərasimdə çıxış edənlər bildiriblər ki, “Arzunun ardınca” filmi təkcə bir qadın alpinistin uğurunu deyil, həm də Azərbaycan qadınının iradəsini və gücünü bir daha nümayiş etdirir. Filmin gənc nəsli, xüsusən də gənc idmançıları qələbəyə ruhlandırdığı qeyd edilib.

Film maraqla izlənilib və alqışlarla qarşılanıb. Sonda tədbir iştirakçıları uğurlu ekran əsərinə görə filmin rejissoru, ssenari müəllifi Arzu Urşan və qəhrəmanı Elmira Aslanovanı təbrik ediblər.

### Milli yığmaların təlim-məşq toplanışı

**Azərbaycanın velosiped idmanı üzrə müxtəlif yaş qruplarından ibarət milli komandaları Gədəbəy rayonunda təlim-məşq toplanışındadır.**



Azərbaycan Velosiped Federasiyasının baş katibi Elnarə Musayevanın sözlərinə görə, dəniz səviyyəsindən 1500-1700 metr yüksəklikdə keçirilən təlim-məşq toplanışında 5-i qız olmaqla, 24 idmançı nəzəri-praktik məşqlərdə və təlimlərdə iştirak edir.

Qeyd olunur ki, Gədəbəyin təbiəti və coğrafi şəraiti velosipedçilərin müxtəlif növ marşrutlarda məşq etmələrinə imkan yaradır. Yüksəklikdə yerləşən marşrutlar idmançıların fiziki hazırlığına müsbət təsir göstərəcək ki, bu da oktyabrda Fransada keçiriləcək Avropa çempionatına hazırlıq üçün əhəmiyyətlidir. Təlim-məşq toplanışı avqustun 30-dək davam edəcək.

### Azərbaycan karateçisinin “gümüş”ü

**Azərbaycan karateçisi İrina Zaretska (68 kq) Çinin Çenqdu şəhərində keçirilən Dünya Oyunlarında gümüş medal qazanıb. İdmançı finalda İsveçrə təmsilçisi Elena Quirici ilə qarşılaşıb.**



Həlledici görüşdə rəqibinə məğlub olan İ.Zaretska fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

*MH ACIXANLI*
*XQ*

# Ruhumuzun Faxralı işığı

**Ağır ellərimizdən olan Borçalıda, Faxralıda söz sözü çəkəndə, köz közə mehir salanda göz-könül sevinir, yurd yerlərinin ocağı daha gur yanır.**



Faxralıda yaradılan “Mədəniyyət və İncəsənət Mərkəzi” də ruhumuzun regional manifesti kimi səciyyə daşıyır. Bura Vətən sevgili hər kəs üçün ulu ruhun havalandığı, qanadlandığı bir məkandır. Ötən əsrin əvvəllərindən üzübəri Faxralı Borçalının istərərazicə, istərdə də sayılıb-seçilən kişilərilə, sazıyla-sözüylə, yarağıyla, qoçaqlığıyla, mənəvi dünyasıyla tanınan ellərdən biri olub. Mahalda bütün tədbirlərdə adı anılıb, özü görünüb, sözü eşidilib. 1919-cu il iyul ayının 15-də Lüksemburqda (indiki Bolnisi) Borçalı mahalında bələdiyyə məclisinin ilk iclasında Faxralı da təmsil olunub. O iclasda Şair Nəbi iştirak edib. Elə bunun özü o deməkdir ki, yaranışından bu ağır elin “zəri də olub, zoru da”...

Şair Nəbi deyirdi:

**Qılıncın qınsızdı, qolun quvvatdı,**
**Baxmadın qocaya, cavana, dünya!**

Faxralının şeir ruhu burda qonaq olan ustad Səməd Vurğunu da heyrətləndirib. Böyük şairin tövsiyəsi ilə Hüseynqulu müəllim (Məmmədov) Şair Nəbinin şeirlərini toplayıb. Sonralar bu mənəvi cəfakeşliyi oğlu Elxan Məmmədli davam etdirib, könülə yatımlı ön sözü ilə Şair Nəbinin kitabını nəşr etdirib, sonra toplu təkrar nəşr olunub. Aydın gecələrdə Dan ulduzu göydə necə seçilirsə, necə göz çəkirsə, bu kitablar mərkəzin eksponatları arasında eləcə seçilir, eləcə göz çəkir...

Rəşid Behbudov adına Mahnı Teatrında söz pirimiz Şair Nəbinin 150 illiyi keçiriləndə ruhumun ustada, ustadlığa biəti kimi yazdığım şeiri xatırlayıram:

**Ərşi-gürşü gülləndirdi**
**Yusifmisal röyasıyla,**
**Göyü Yerə tül elədi saza-sözə sevdasıyla...**
**“Dünya”lara heyrət oldu dünyalaşan “Dünya”sıyla,**
**Yüz illərdən yüz illərə zəmanətdi Şair Nəbi!..**

Şeirin nə olduğunu dərsliklərdən öyrənə-öyrənə böyümüşdük. Bizə şeiriyyəti Əli Səngərlinin şeir, şeiriyyət (və heyrət!) dünyası sevdirmişdi. İlk dəfə şair görürdük, şeirin nəfəsini şairin səsində duyurduq. Əli Səngərlinin “Qoca Vələsin nağılı”, “Bağçasaray”, “Kirkirə”... kimi əsərlərinin şair hünəri olduğunu bilənlər bilirdi, duyanlar duyurdu. Sonralar biz də duyduq, milli-xəlqi mübarizənin Faxralıdan ucalan harayıyla yaşıd olduq. Əli Səngərlinin şeir kitablarını (“Şair harayı” və digərləri) hamı kimi mən də poeziyamızın boy ölçüsü bildim...

ŞAİR idi, həyatı, yaşam fəlsəfəsini belə şeirləşdirmişdi: “Ölüm nədi, kül ələyim gözünə...” – Əli Səngərlinin “Mədəniyyət və İncəsənət Mərkəzi”nə gələnlərin düşüncələrinə bu şeir biçimində bir şair kəlamı da hopur: “Həyatı sevin, Faxralını yaşada-yaşada yaşayın!”. Nə gözəl arzudu, diləkdi – şair duasıdı!..



“Mədəniyyət və İncəsənət Mərkəzi”ndəyəm. Mənə elə gəlir ki, indicə ustadımın əlini çiynimdə hiss edəcəm. Yenə deyəcək ki, ə Rəşid, bir şeir oxu. Oxuyacam. Sonra gözüm üzündə qalacaq: Görəsən, bəyəndimi?..

Bu mərkəz ruhumuza düşən işıqdı. Bu işığı tarixləşdirənlərin kimliyini öyrənmək istəyirəm. Qürurla “Faxralının oğulları!” deyirlər. Yadıma İkinci Qarabağ müharibəsində döyüşdə ağır yaralanmış döyüşçüdən sorğum, sorğuma aldığım cavab düşür:

– Adın nədi, əsgər bala?
– Azərbaycan əsgəridi!..

O zaman yaşadığım qürurun eynisini Faxralı “Mədəniyyət və İncəsənət Mərkəzi”ndə də yaşayıram. O qürurla bu qürurun arasında ancaq zaman və məsafə fərqi var...

Elxan Məmmədlinin Şair Nəbiyə həsr etdiyi monoqrafiya... Həzi Həsənlinin Borçalının ilk ali təhsilli riyaziyyat müəllimi Nəbi Gülməmmədova həsr etdiyi kitab... İsmayıl Güllərin “Faxralının torpağıdı bu yerlər”, Səməndər Məmmədlinin “Faxralılar” kitabları... Hər birində türk dünyası var, Borçalı var, Faxralı var, faxralılıq var.

Ruhun şad olsun, İsmayıl Güllər, sözlə (şeirlə) Faxralının ərazisini tarixə tanıdıb könüllərə çəkən şair, Şair Nəbinin oğlu Rəhimlə deyişmən də ustadlıqdan düşən işığıydı. Zaman-zaman dünyaya könlünün gözüylə baxanlar şeiriyyət kəhkəşanında Faxralı poeziyasının gur işığını aydınlığıyla görüb; bu ağır elin deyimləri də ustadnaməlikdi (“Əti yeyilmir, gönü geyilmir, insan insana yağı kəsilib”). Hərdən yazdığım belə deyimləri Faxralıya ad eləmək də keçir könlümdən: “Qışda qarı dizləməsən, yayda izin üşüyəcək”. Deyimlər kimi bayatıları da:

**...ya daşa,**
**Ya qaynaya, ya daşa.**
**Can verərəm, qoymaram**
**Bu dağları yad aşa!..**

Hamlet Kazımoğlu fitrətən şair idi. Oxuyanlar onun şeirlərini, illah da gəraylılarını ruhuna meh həzinliyi, şeh zərifliyi, qövsi-qüzeh gözəlliyi bilir. Bu istedadlı şairin də sədaqətlə yaşadılan poetik dünyası min illərlə böyük dünyaya buradan deyəcək ki, mən Faxralının (deməli, Borçalının, deməli, Türk dünyasının) şair oğlu Hamletəm! “Bu ehtiram özü könüllərdə, sözü dillərdə (və tarixdə!) yaşayanlara mənəvi borcumuzdu!” Bu kəlamı da Faxralı deyimi bilmək suç deyil...

Bolnisi meriyasının İmirhəsən və Faxralı kəndləri üzrə nümayəndəsi Novruz Ayvazov “Mədəniyyət və İncəsənət Mərkəzi”nin mahiyyətinin tarixə, milli-xəlqi ruha sədaqət olduğunu bildirərək deyir ki, bugünün gəncləri Faxralının saz-söz, incəsənət cəfasını çəkmiş fədailərin kimliyini xatirələrdən eşidirdilər, buradan öyrənəcəklər. Bu mərkəz həm də Faxralının etnoqrafik tarixi muzeyinin başlanğıcı olacaq. İşığı ömürlərə düşəcək. Gürcüstanda belə bir mərkəzin yaradılması başərilik baxımından dəyərlidir...

Gürcüstan parlamentinin deputatı David Şaradizişvili “Mədəniyyət və İncəsənət Mərkəzi”ni bir kəndin timsalında dövlətə ehtiram adlandırır...

Faxralı orta məktəbinin müəllimləri Səlminaz Əhmədovanın, Fatma Əliyevanın, Səmayə Musayevanın fikirləri (“Bu mərkəz mahiyyəti etibarilə pedaqoji prosesin davamı olacaq”; “Bu mərkəzə Faxralıda yaranmış ədəbiyyatımızın, formalaşmış incəsənətimizin yaddaş muzeyi də deyə bilərik”; “Son 100 ildə Faxralıda yaranan ədəbiyyatımızın şəriksiz işığı Şair Nəbinin poetik dünyasının İşığıdı”) pedaqoji, ədəbi, etnoqrafik və tarixi gerçəkliklər kimi dinlənilir...

Faxralıdan ruhumuza təzə işıq düşür, Vətən! Bu laciverd işıq Faxralıdan uzaqlarda daha gözəl görünür!..

Şair Nəbinin bir gözəl ustadnaməsini xatırlayıram: “Min şükür”...

*Rəşid FAXRALI*

# Milli Qəhrəman Hökumə Əliyevanın xatirəsi anılıb

**Samuxun Alıuşağı kəndində Milli Qəhrəman Hökumə Əliyevanın doğum günü ilə bağlı anım mərasimi keçirilib. Mərasimdə Milli Qəhrəmanın ailə üzvləri, yaxınları, AZAL-ın vitse-prezidenti İlham Əmirov, Hökümə Əliyevanın həmkarları iştirak ediblər.**




Hökumə Əliyeva dekabrın 25-də Bakıdan Qroznıya uçan “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olub. Prezident İlham Əliyevin 2024-cü il 29 dekabr tarixli sərəncamı ilə Hökumə Cəlil qızı Əliyeva “Azərbaycanın Milli Qəhrəmanı” adına və “Qızıl Ulduz” medalına layiq görülüb.

Mərasim iştirakçıları ailəsinin təşəbbüsü ilə Alıuşağı kəndində Milli Qəhrəmanın xatirəsinə yaradılan, onun fotolarının, şəxsi əşyalarının sərgiləndiyi guşəyə də baxış keçiriblər.

*XQ*

# 2025-ci ilin sonuncu planetlər paradı

**Bu ilin yanvarında 6 planetin iştirakı ilə böyük parad, fevral ayında isə 7 planetin qoşulduğu nadir tam planet paradı müşahidə olunub. İlin sonuncu paradı isə bu gün səhər sübh tezdən baş tutmalıdır.**




Qeyd edək ki, planetlərin Günəş sistemində eyni anda Günəşdən bir istiqamətdə sıra ilə düzülməsi zamanı meydana gələn astronomik hadisəyə planetlərin paradı deyilir. Planetlərin paradının 4 növü vardır: “Mini parad” Günəşə nəzərən eyni sektordakı 3 planetin bir sırada düzülməsinə deyilir. “Kiçik parad”da 4 planet, “Böyük parad” 5-6 planet, “Tam parad”da isə bütün planetlər eyni sıraya düzülür.

Qeyd edək ki, planetlərin paradı tamamilə vizual hadisədir və parad zamanı Yer səmasında onlar ardıcıl sıralasanlar da, kosmosda planetlərin konfiqurasiyası tamamilə fərqli olur.

*Qabil YUSİFOĞLU*
*XQ*

## HAVA

### Günəşli bir bazar günü...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecəyə doğru bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 24-27, gündüz 32-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-26, gündüz 33-37, dağlarda gecə 12-17, gündüz 20-25 dərəcə isti olacaq.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3406
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00